# İstanbulda güclü külək

Hadisə nəticəsində dörd nəfər həlak olub, 19 nəfər xəsarət alıb



**Türkiyədə əlverişsiz və yağıntılı hava şəraiti davam edir.**

İstanbulda dünən səhər saatlarından əsən və axşama doğru daha da güclənən külək bir sıra evlərin dam örtüyünü uçurub.

Şəhərin bir çox bölgəsində dam örtükləri vətəndaşların və avtomobillərin üzərinə düşüb. İstanbulun Esenyurt və Sultanqazi rayonlarında baş verən analoji hadisə nəticəsində dörd nəfər həlak olub, 19 nəfər xəsarət alıb.

(səh.2)



# Tviterin baş direktoru istefa verib

Əvəzinə yenisi təyin olunub

**Tviterin baş direktoru Cek Dorsi istefa verib.**

"Report" xəbər verir ki, bu barədə tviterdə məlumat yayılıb. Məlumata görə, bu vəzifəyə artıq yeni təyinat da olub.

Direktorlar Şurası Dorsinin əvəzinə Paraq Aqravalı təyin edib.

№ 218 (5500), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 noyabr 2021-ci il (çərşənbə axşamı)



# COVID sertifikatlarının etibarlılıq müddəti müəyyənləşib

Nazirlər Kabineti bununla bağlı qərar qəbul edib

**Nazirlər Kabineti COVID sertifikatlarının tanınması ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında Qərar qəbul edib.**

Sözügedən Qərara əsasən COVID Sertifikatı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən formalaşdırılır və şəxsin müraciəti əsasında E-TƏBİB və ya Elektron Hökumət İnformasiya Sisteminin MyGov platforması (bundan sonra - Portal) üzərindən əldə olunur. COVID Sertifikatı müraciət edən şəxs barəsində Portala daxil edilmiş və ya avtomatik şəkildə generasiya olunan fərdi və COVID-19 xəstəliyi ilə bağlı şəxsin sağlamlığının vəziyyəti barədə məlumatlar əsasında formalaşdırılır.

(səh.2)



# Rusiya Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması üçün mühüm rol oynayır

Prezident İlham Əliyevin Rusiyanın "Rossiya-1" telekanalına müsahibə verib

**Noyabrın 28-də Rusiyanın "Rossiya-1" telekanalında efirə gedən "Moskva.Kreml.Putin." verilişində Rusiya Federasiyasında işgüzar səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən Soçi hava limanında bu veriliş üçün alınan müsahibə yayımlanıb.**

AZƏRTAC müsahibəni təqdim edir.

**Prezident İlham Əliyev:** Biz Azərbaycanda bunu çox müsbət qiymətləndiririk. Mən bunu bu gün görüşdə də demişəm. Rusiya Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması üçün çox mühüm rol oynayır. Görüşün yekunlarına əsasən qəbul etdiyimiz, nəqliyyat şəbəkələrinin açılması, delimitasiya üzrə komissiyanın işə hazırlaşması üçün atılan addımlar barədə Birgə Bəyanat buna dəlalət edir. Azərbaycan bütün bu məsələləri dəfələrlə irəli sürüb və Rusiya bunu həmişə dəstəkləyib. Buna görə, bugünkü görüş də çox böyük əhəmiyyət kəsb edir.

# Azərbaycanın Yekaterinburqdakı baş konsulu geri çağırılıb



**Prezident İlham Əliyev İlqar İskəndərovun Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, İlqar Fazil oğlu İskəndərov Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

# Zəngəzur dəhlizi reallığa çevrilir

## Aşqabadda Zəfər təbrikləri ilə Ermənistana ən ağır zərbə vuruldu



**İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Aşqabadda keçirilən 15-ci Zirvə Toplantısı Soçi razılaşmasının ardından Azərbaycanın siyasi strategiyasında növbəti uğurlu addım oldu. İƏT-ə üzv olan dövlətlər Azərbaycanı qələbə münasibətilə təbrik etdi və yekun hesabatlarda dəhliz anlayışı birmənalı olaraq regional status qazandı.**

Bu hesabatlarda dəhliz anlayışı həm də "Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı sənədlər" kontekstində öz əksini tapır. Bu isə Zəngəzur dəhlizi deməkdir və dəhlizin bölgədə marağı olan dövlətlər üçün strateji əhəmiyyətə malik olduğunun göstəricisidir. Toplantının digər bir mühüm məqamı isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) daxil olan ölkələrlə bağlıdır. KTMT-yə üzv olan ölkələrdən 4-ü İƏT-də Azərbaycanın müttəfiqidir. Onların yekun sənəddə Azərbaycanın mövqeyini müdafiə etməsi Ermənistana növbəti bir zərbə oldu. Ermənistan dəfələrlə qurumu Azərbaycanla qarşıdurmaya sövq etməyə çalışıb. Lakin məqsədinə nail ola bilməyib. Sərhəd təxribatlarının arxasında duran əsas amil də məhz təşkilatı müdaxiləyə cəlb etmək və Azərbaycana qarşı güc balansı formalaşdırmaq idi. KTMT-yə üzv olan ölkələr isə reallığı düzgün qiymətləndirərək, Ermənistanın çağırışlarına heç bir reaksiya göstərmirdi. İƏT-in Zirvə Toplantısında KTMT-yə üzv olan ölkələrdən 4-nün Azərbaycanı qələbə münasibətilə təbrik etməsi və qəbul edilən hesabatlarda dəhlizin strateji əhəmiyyətinin qeyd edilməsi Ermənistanın acı duruma düşdüyünün nümayişidir.

(səh.3)




# Son sutkada 857 nəfər koronavirusa yoluxub

26 nəfər vəfat edib, 1091 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 857 yeni yoluxma faktı qeydə alınıb, 1091 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 26 nəfər vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 586 640 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 552 815 nəfər müalicə olunaraq sağalıb, 7 833 nəfər vəfat edib, aktiv xəstə sayı 25 992 nəfərdir.*

# Böhran dərinləşir, ölkə iflic olub

## Gürcüstanda hakimiyyətin iki seçimi qalır



**Dünən Gürcüstanın üçüncü prezidenti Mixail Saakaşvilinin məhkəməsi keçirilib. O, məhkəmə zalından əhaliyə müraciət edib. Saakaşvili çıxışında saxlanıldığı ana qədər əhali ilə ünsiyyətdə olduğunu və insanların çox ağır vəziyyətdə olduğunu bildirib:**

"Vətənimizin qürur hissi üçün darıxmamısınızmı? İnkişaf tempi üçün darıxmamısınızmı? Yenilik və yenidən qurulma üçün darıxmamısınızmı? Sevgi üçün darıxmamısınızmı? Qələbəni qeyd etmək üçün darıxmamısınızmı? Əgər bütün bunlar üçün darıxmısınızsa, o zaman indi baş verənləri birlikdə bitirməliyik. İlk növbədə hazırda çöldə duran insanları salamlamaq, Gürcüstan cəmiyyətini salamlamaq istəyirəm və sizlərə sual vermək istəyirəm.

(səh.5)

# Hava dəyişəcək

Güclü külək, yağış, qar gözlənilir



**Bakıda və Abşeron yarımadasının dekabrın 1-i gündüzdən 2-si səhərədək şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-25 m/s, yarımadanın bəzi yerlərində arabir 28 m/s-dək güclənəcəyi gözlənilir. Axşam yağış yağacağı ehtimalı var.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, havanın temperaturu dekabrın 2-də ötən günlərlə müqayisədə 5-7° aşağı enəcək. Azərbaycanın rayonlarında dekabrın 1-i gününün ikinci yarısından 2-si gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi arabir 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək. Havanın temperaturu dekabrın 2-də ötən günlərlə müqayisədə 5-8° aşağı enəcək. Çaylarda sululuğun artacağı ehtimalı var.

# Ermənistanın sabiq müdafiə nazirinin həbs müddəti uzadılıb



**Ermənistanın sabiq müdafiə naziri David Tonoyanın həbs-qətimkan müddəti daha iki ay uzadılıb.**

Trend-in məlumatına görə, bunu Ermənistan mətbuatına sabiq nazirin vəkili Sergey Ovannisyan deyib.

O, bu qərarla bağlı apellyasiya şikayətinin veriləcəyini bildirib.

Qeyd edək ki, D.Tonoyan 2018-ci ilin sonunda 4,6 milyon dollar məbləğində yararsız raketlərin alınması ilə bağlı ittiham olunur.

David Tonoyan 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsindən sonra istefa vermişdi.



# Kreml Qərbə mesajını verdi

"Cənubi Qafqazdakı proseslərin başında Rusiya dayanır"

(səh.4)

# Köç dalğası artır



Son 4 ildə Ermənistanda rekord göstərici qeydə alınıb

(səh.5)

# COVID sertifikatlarının etibarlılıq müddəti müəyyənləşib

## Nazirlər Kabineti bununla bağlı qərar qəbul edib




**Nazirlər Kabineti COVID sertifikatlarının tanınması ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında Qərar qəbul edib.**

Sözügedən Qərara əsasən COVID Sertifikatı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən formalaşdırılır və şəxsin müraciəti əsasında E-TƏBİB və ya Elektron Hökumət İnformasiya Sisteminin MyGov platforması (bundan sonra - Portal) üzərindən əldə olunur. COVID Sertifikatı müraciət edən şəxs barəsində Portala daxil edilmiş və ya avtomatik şəkildə generasiya olunan fərdi və COVID-19 xəstəliyi ilə bağlı şəxsin sağlamlığının vəziyyəti barədə məlumatlar əsasında formalaşdırılır.

**COVID sertifikatlarının etibarlılıq müddəti aşağıdakı kimidir:**

COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı təsdiqləyən sertifikat üzrə - müddətsiz;

COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikat üzrə - 6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını 56 gün ərzində aldıqda - müddətsiz;

peyvəndləməyə əks göstərişi təsdiqləyən sertifikat üzrə - Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin ambulator-poliklinik tibb müəssisələrinin peyvəndləmə prosesinə nəzarət komissiyaları tərəfindən göndərilən tibbi arayışlara baxılaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əsaslandırılmış rəyinə əsasən müəyyən edilmiş müddətə;

neqativ PZR test nəticəsini əks etdirən sertifikat üzrə - 72 saat (nəticənin elan olunduğu saatdan).

Xarici COVID sertifikatlarının etibarlılıq müddəti xarici ölkələrin vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə münasibətdə beynəlxalq təcrübədə nəzərdə tutulmuş razılaşmalarla, Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə isə bu Qaydaya uyğun olaraq müəyyən edilir.

COVID sertifikatlarının tanınmasının məqsədi Azərbaycan Respublikasının vətəndaşlarının, xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşlarının, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslərin və onların ailə üzvlərinin, ölkəmizdə daimi və müvəqqəti yaşayan, Azərbaycan Respublikasında qaçqın statusu almış, habelə BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sərbəst şəkildə ölkəyə girişinin, ölkədən çıxışının və tranzit səyahət etmələrinin təmin olunmasıdır.

COVID sertifikatlarının Azərbaycan Respublikasının hüdudlarından kənarda tanınması və xarici sertifikatların Azərbaycan Respublikasında tanınması məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi beynəlxalq təcrübədə mövcud olan razılaşmaların şərtləri nəzərə alınmaqla və texniki cəhətdən mümkün olduğu təqdirdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyini, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətini, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətini proqram təminatı ilə təmin edir və aidiyyəti informasiya sistemləri ilə inteqrasiya əsasında zəruri məlumatları ötürür.

# Gənclər və idman nazirinin müavinləri dəyişib




**Prezident İlham Əliyevin 29 noyabr 2021-ci il tarixli sərəncamları ilə İntiqam Vaqif oğlu Babayev və İsmayıl Sultan oğlu İsmayılov gənclər və idman nazirinin müavini vəzifəsindən azad edilib.**

Prezidentin 29 noyabr 2021-ci il tarixli digər sərəncamları ilə İndira Niyazi qızı Hacıyeva və Mariana Toteva Vasileva gənclər və idman nazirinin müavini vəzifəsinə təyin olunub.

# Operativ Qərargahın genişləndirilmiş iclası keçirilib

## Yeni il şənlikləri zamanı xüsusi karantin rejiminin qaydalarına nəzarət gücləndiriləcək





**Dünən Azərbaycan Respublikasının Baş naziri, COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Operativ Qərargahın rəhbəri Əli Əsədovun sədrliyi ilə Operativ Qərargahın genişləndirilmiş iclası keçirilib.**

Nazirlər Kabinetindən "Şərq"ə verilən məlumata görə, iclasda pandemiya ilə bağlı hazırkı vəziyyət - yoluxmanın miqyası, xəstələrin müalicəsi, peyvəndlənmənin sürəti və miqyası, xüsusi karantin rejiminin tələblərinə əməl edilməsinə nəzarət üzrə monitorinqlərin nəticələrinə dair məsələlər müzakirə olunub.

Qarşıdan gələn Yeni il şənlikləri zamanı xüsusi karantin rejiminin qaydalarına əməl edilməsinə nəzarətin gücləndirilməsinin məqsədəuyğun olduğu vurğulanıb.

*İclasda, habelə omicron ştammı və ona qarşı proflaktik tədbirlər müzakirə olunub və müvafiq hazırlıq işlərinə dair tapşırıqlar verilib.*

# İstanbulda güclü külək

## Hadisə nəticəsində dörd nəfər həlak olub, 19 nəfər xəsarət alıb



**Türkiyədə əlverişsiz və yağıntılı hava şəraiti davam edir.**

**İstanbulda dünən səhər saatlarından əsən və axşama doğru daha da güclənən külək bir sıra evlərin dam örtüyünü uçurub.**

Şəhərin bir çox bölgəsində dam örtükləri vətəndaşların və avtomobillərin üzərinə düşüb. İstanbulun Esenyurt və Sultanqazi rayonlarında baş verən analoji hadisə nəticəsində dörd nəfər həlak olub, 19 nəfər xəsarət alıb.

Əsən güclü külək ölkənin Bursa vilayətində 270 illik çinar ağacını kökündən çıxarıb. Şəhərin Osmanqazi rayonunda evlərin dam örtükləri tramvay xətlərinin və vaqonların üzərinə düşüb. Bu səbəbdən bəzi tramvay reysləri təxirə salınıb. Trabzon-Bursa aviareysi üzrə hərəkət edən "Anadolu Jet" aviaşirkətinə məxsus təyyarə güclü cənub-qərb küləyi səbəbindən Yenişehir hava limanına enə bilməyib və Ankaraya yönləndirilib.

Ölkə ərazisində yağan güclü yağışlar nəticəsində İzmirdə və Kocaelidə avtomobil və tramvay yollarında böyük gölməçələr yaranıb, bəzi ictimai obyektləri su basıb. Bir sıra qayığa ciddi ziyan dəyib. İstanbul, İzmir, Bursa və digər vilayətlərdə dəniz səfərləri müvəqqəti dayandırılıb. İstanbulun Bosfor boğazı da gəmi keçidləri üçün müvəqqəti bağlanıb.

*Hidrometeoroloqlar əlverişsiz hava şəraitinin daha bir neçə gün davam edəcəyini bildirirlər. Bu barədə əhaliyə xəbərdarlıq edilib.*

# Rusiyanın neft ehtiyatları 30 il kifayət edəcək



**Rusiyanın neft ehtiyatları minimum 30 il kifayət edər. Azərtac xəbər verir ki, bu fikri Baş nazirin müavini Aleksandr Novak Rusiya-Çin Enerji Forumunda söyləyib.**

O bildirib ki, Rusiya nəhəng neft və qaz ehtiyatlarına malikdir. Ölkənin neft ehtiyatları azı 30 il, qaz ehtiyatları isə minimum 50 il müddətinə kifayət edəcək.

A.Novak qeyd edib ki, son illər alternativ enerji mənbələrinə keçid nəzərə çarpsa da, neft və qaza yaxın illərdə tələbat azalmayacaq. Rusiya rəsmisi ölkəsinin 2022-ci ilin mayına kimi gündəlik neft hasilatını 400 barelə yüksəltmək iqtidarında olduğunu da vurğulayıb.

# Putin-Bayden görüşü əyani formatda keçirilməyə bilər



**Rusiya və ABŞ prezidentlərinin növbəti sammitinin keçirilməsi üzrə işlər irəliləməkdədir.**

APA-nın Moskva müxbirinin xəbərinə görə, bu barədə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib.

O, Vladimir Putinlə Co Baydenin görüşünün keçirilməsi ilə bağlı vəziyyətə yaxın günlərdə aydınlıq gələcəyini vurğulayıb.

"Hesab edirəm ki, yaxın vaxtlarda məsələyə aydınlıq gətiriləcək, indiki mərhələdə burada söhbət əyani təmasdan getmir. Lakin bu, heç də tədbirin əhəmiyyətini azaltmır. İkitərəfli münasibətlərdə və beynəlxalq arenada mövcud olan şərait və problemlərin məcmusunu nəzərə alsaq, prezidentlər arasında təmas, mənə elə gəlir ki, çox mühüm mərhələyə keçəcək", - XİN rəhbərinin müavini qeyd edib.

# Dialoq, əməkdaşlıq, demokratiya güclənəcək





## Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması əlavə bir imkandır

**Noyabrın 28-də İspaniyanın paytaxtı Madrid şəhərində Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclası keçirilib.**

50-yə yaxın ölkədən 200-ə qədər nümayəndənin iştirak etdiyi təsis iclasını Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova açıb. Açılış çıxışında iclas iştirakçılarını salamlayan spiker Sahibə Qafarova qeyd edib ki, biz bu gün 60 il ərzində araşdırılmamış qalan bir ölçünün - üzv ölkələr arasında əməkdaşlığın parlament ölçüsünün əsasını qoyuruq. Onun sözlərinə görə, 60 il əvvəl bu forumu yaradan Qoşulmama Hərəkatının təsisçilərinin məqsədi Bandunq prinsiplərinə tam uyğun olaraq, bütün xalqların dinc yanaşı yaşamasına və davamlı inkişafına töhfə vermək idi. Onların uzaqgörənliyi və məqsədyönlülüyü beynəlxalq ictimaiyyətin həmfikir üzvlərinin birləşməsinə və üzv dövlətlərin sayına görə dünyada ikinci ən böyük beynəlxalq təsisatın yaranmasına səbəb olub. Milli Məclis sədri qeyd edib ki, hazırda bəşəriyyət son dərəcə çətin günlərdən keçir. Ayrı-seçkiliyin, irqçiliyin və ksenofobiyanın artması, hələ də davam edən COVİD-19 pandemiyası və onun sosial-iqtisadi mühitə mənfi təsirləri, iqlim dəyişikliyi beynəlxalq əməkdaşlıq və həmrəylik ruhunda səfərbər olunmağımızı zəruri edir.

Parlament rəhbəri bildirib ki, təsis edilən Parlamentlər Şəbəkəsi Qoşulmama Hərəkatının ideya və prinsipləri barədə məlumatların qurumun üzv dövlətləri və xalqları arasında yayılmasına və təbliğinə töhfə verəcək: "Bununla yanaşı, təşkilat üzv dövlətlərin parlamentləri arasında əməkdaşlıq platforması rolunu oynaya bilər. Parlamentlər Şəbəkəsi sülh, təhlükəsizlik, insan hüquqları və inkişafla bağlı parlament təcrübəsinin mübadiləsinə də imkan yaradacaq. Qurumun böyük tədbirlərində bəyannamə sənədlərinə uyğun olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin vəzifə və öhdəliklərinin gerçəkləşdirilməsinə parlament dəstəyi verəcək. Bu təsisat hamımızı narahat edən məsələlərin həllinə parlament töhfəsini verməkdə forum rolunu oynayacaq. Çoxtərəfliliyin yayılması üçün Parlamentlər Şəbəkəsi əlavə hərəkətverici qüvvə olacaq".

Parlamentlərarası İttifaqın sədri Duarte Poçeko isə deyib ki, təcrübələrimizi bölüşməli, ikitərəfli əlaqələrimizi daha da genişləndirməliyik: "Qlobal problemləri birlikdə dəyərləndirməli və onların həlli yollarını birlikdə tapmalıyıq. Bu baxımdan Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması əlavə bir imkandır. Bu, dialoq, əməkdaşlıq, demokratiyanın gücləndirilməsi üçün yeni platformadır".

Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunkonq çıxışında bildirib ki, Parlamentlər Şəbəkəsi bəşəriyyətdə sühün və sabitliyin bərqərar olmasına öz töhfəsini verəcək. Xüsusilə bütün dünyanın "COVİD - 19" pandemiyası ilə üz-üzə qaldığı bir vaxtda qanunverici orqanlar arasında dialoqun intensivləşdirilməsinə, parlament diplomatiyasının gücündən istifadə edərək ortaq qərarlar qəbul edilməsinə xüsusi ehtiyac var.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop da qeyd edib ki, artıq 60 ildir mövcud olan və üzvlərinin sayı 120-yə çatan Qoşulmama Hərəkatı beynəlxalq ədalətin, sülhün təmin edilməsi baxımından çox böyük bir potensiala malikdir. TBMM sədri Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının prinsiplərinin təbliği istiqamətində atılan addımların təşkilatı daha da gücləndirəcəyinə inandığını vurğulayıb. Mustafa Şentop davam etməkdə olan COVİD-19 pandemiyasının dünyada hökm sürən ədalətsizlikləri bir daha gözlər önünə sərdiyini bildirib və yeni təsis olunan Parlamentlər Şəbəkəsinin əməkdaşlığı daha da dərinləşdirəcəyinə inandığını söyləyib.

Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər hazırda bütün dünya, o cümlədən demokratik dəyərlərin bir sıra təhdidlərlə üz-üzə qaldığını, bu qlobal problemlərin həlli üçün parlamentlərarası dialoqun genişləndirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. O deyib ki, Qoşulmama Hərəkatının bu gün təsis edilən Parlamentlər Şəbəkəsi bəşəriyyəti təhdid edən çağırışların həlli istiqamətində ən önəmli platformalardan biri olacaqdır.

**İsmayıl**

# Qəbul proqramında dəyişiklik

## Təkcə coğrafiya fənnində deyil, tarix dərsliklərində də iqtisadi rayonlar haqqında müvafiq bölümlər öz əksini tapa bilər





**Ali məktəblərə qəbul proqramında dəyişiklik edilib. Yeni iqtisadi rayonlar mövzusu coğrafiya fənni üzrə ali təhil müəssisələrinin qəbul proqramına daxil edilib.**

Bu barədə Dövlət İmtahan Mərkəzi (DİM) məlumat yayıb. Qeyd edilib ki, Prezidentin müvafiq fərmanına əsasən, respublikanın iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edilib.

**Məlum dəyişikliyin əhəmiyyətini "Şərq"ə dəyərləndirən təhsil eksperti Elçin Əfəndi bildirib ki, iqtisadi rayonların coğrafiya dərsliklərində yer alması istiqamətində müəyyən işlər aparılır:**

"Müvafiq dəyişiklik olarsa, əlbəttə ki, bundan abituriyentlər məlumatlanmalıdır. Dövlət İmtahan Mərkəzi (DİM) həmin rayonların proqrama daxil olması barədə informasiya verməlidir. Tədris prosesində müəllimlər iqtisadi rayonlar barədə şagirdlərə danışırlar. Baxmayaraq ki, dərsliklərə bu mövzu hələ salınmayıb. Düşünürəm ki, DİM-in qəbul proqramındakı dəyişikliyi həm abituriyentlər, həm də şagirdlərin ərazilərimiz haqqında bilgi almalarına gətirib çıxaracaq. Təkcə coğrafiya fənnində deyil, tarix dərsliklərində də iqtisadi rayonlar haqqında müvafiq bölümlər öz əksini tapa bilər".

**Sücayət Mehti**



# Zəngəzur dəhlizi reallığa çevrilir

## Aşqabadda Zəfər təbrikləri ilə Ermənistana ən ağır zərbə vuruldu

İsmayıl Qocayev

**İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Aşqabadda keçirilən 15-ci Zirvə Toplantısı Soçi razılaşmasının ardından Azərbaycanın siyasi strategiyasında növbəti uğurlu addım oldu. İƏT-ə üzv olan dövlətlər Azərbaycanı qələbə münasibətilə təbrik etdi və yekun hesabatlarda dəhliz anlayışı birmənalı olaraq regional status qazandı.**

Bu hesabatlarda dəhliz anlayışı həm də "Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı sənədlər" kontekstində öz əksini tapır. Bu isə Zəngəzur dəhlizi deməkdir və dəhlizin bölgədə marağı olan dövlətlər üçün strateji əhəmiyyətə malik olduğunun göstəricisidir. Toplantının digər bir mühüm məqamı isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) daxil olan ölkələrlə bağlıdır. KTMT-yə üzv olan ölkələrdən 4-ü İƏT-də Azərbaycanın müttəfiqidir. Onların yekun sənəddə Azərbaycanın mövqeyini müdafiə etməsi Ermənistana növbəti bir zərbə oldu. Ermənistan dəfələrlə qurumu Azərbaycanla qarşıdurmaya sövq etməyə çalışıb. Lakin məqsədinə nail ola bilməyib. Sərhəd təxribatlarının arxasında duran əsas amil də məhz təşkilatı münaqişəyə cəlb etmək və Azərbaycana qarşı güc balansı formalaşdırmaq idi. KTMT-yə üzv olan ölkələr isə reallığı düzgün qiymətləndirərək, Ermənistanın çağırışlarına heç bir reaksiya göstərmirdi. İƏT-in Zirvə Toplantısında KTMT-yə üzv olan ölkələrdən 4-nün Azərbaycanı qələbə münasibətilə təbrik etməsi və qəbul edilən hesabatlarda dəhlizin strateji əhəmiyyətinin qeyd edilməsi Ermənistanın acı duruma düşdüyünün nümayişidir. Bununla Ermənistan təşkilatda "ofsayd"da qaldı. Bütün bunlar Azərbaycanın növbəti uğuru, Ermənistanın isə məğlubiyyət seriyasının davamıdır.

**Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bildirib ki, bu, şübhəsiz ki, Azərbaycanın diplomatik qələbəsidir. Onun sözlərinə görə, KTMT ölkələrinin əksəriyyəti Ermənistanın bu təşkilatda olmasına baxmayaraq, Azərbaycanı dəstəkləyir:** "Burada müasir dünyanın görkəmli diplomatlarından biri olan Prezident İlham Əliyev şəxsiyyətinin rolu olub. Bu, gözlənilən diplomatik qələbədir, Azərbaycan rəhbərliyinin bütün illik fəaliyyətinin nəticəsidir". Markov vurğulayıb ki, Ermənistanla qarşıdurmada Azərbaycan əksər dövlətlərdən, o cümlədən postsovet məkanındakı ölkələrdən böyük dəstək alır: "Qırğızıstan, Tacikistan və Qazaxıstandan başqa, Belarusun da adı çəkilməlidir ki, onlar da Azərbaycana, hətta konkret olaraq silahla da fəal dəstək verirlər. Belə böyük dəstəyin olmasının bir neçə səbəbi var. Birincisi, BMT-nin bütün üzvləri bilir ki, Təhlükəsizlik Şurasının qətnamələri var ki, Qarabağ Azərbaycandır və işğala son qoyulmalıdır. Bundan başqa, hamı bilir ki, Azərbaycan ədalətli mövqe tutur. Bu ərazilər həmişə Azərbaycanın olub. Bunun sübutu Xocalıdakı soyqırım, kütləvi etnik təmizləmədir. Bütün bunlar müxtəlif ölkələri məhz Azərbaycanı dəstəkləməyə sövq etdi. Bir çox dövlətlərdə Ermənistana kifayət qədər kritik münasibət bəsləyirlər. Hələ sovet dövründə, indi olduğu kimi, Azərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı ölkə olub. Ermənistan isə həmişə monomillətli, ultra-millətçi ölkə olub və belə də qalır".

KTMT ölkələrinin əksəriyyəti Ermənistanın bu təşkilatda olmasına baxmayaraq, Azərbaycanı dəstəkləyir

**Siyasi şərhçi Elçin Mirzəbəyli deyib ki, İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında Azərbaycan xalqı və hökumətinə 30 illik işğala son qoyulması ilə bağlı ünvanlanan təbrik təsadüfi deyil.** Ekspert vurğulayıb ki, bu, ölkəmizin beynəlxalq nüfuzuna, Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinə verilən yüksək dəyər, Azərbaycan dövlətinin beynəlxalq hüququn norma və prinsiplərinə söykənən ədalətli mövqeyinin dəstəklənməsidir: "Azərbaycana təbrik ünvanlayan ölkələrdən üçünün Ermənistanın da təmsil olunduğu KTMT üzvü olması isə Aşqabad Bəyannaməsində ərazi bütövlüyümüzün təmin edilməsi ilə bağlı yer alan məqamların əhəmiyyətini daha da artırır. Bu isə şübhəsiz ki, Prezident İlham Əliyevin növbəti diplomatik uğuru və qələbəsidir. Xatırladım ki, Prezidentin KTMT üzvü olan dövlətlərlə qurduğu yüksək səviyyəli münasibətlər, hələ müharibə cinayətkarı Serj Sarkisyanın Ermənistana rəhbərlik etdiyi dönəmdə rəsmi İrəvanın sözügedən təşkilat daxilindəki provokasiya xarakterli addımlarının qarşısını alıb. Ölkəmizlə olan ikitərəfli münasibətlərin üzv dövlətlər üçün Ermənistandan daha böyük əhəmiyyətə malik olduğu gerçəkliyini ortaya qoyub. İƏT-də təmsil olunan KTMT üzvlərinin - Qazaxıstan, Qırğızıstan və Tacikistanın digər üzv dövlətlərlə birlikdə Azərbaycanı ərazi bütövlüyünün bərpası münasibətilə təbrik etmələri ölkəmizlə olan münasibətlərə verilən yüksək əhəmiyyətlə yanaşı, Ermənistana olan münasibəti də əks etdirir. Bəlli olur ki, Ermənistan, hətta təmsil olunduğu hərbi-siyasi blokda da heç bir dəyərə malik deyil. Bu ölkə ilə normal müttəfiqlik münasibətləri qurmağın, yaxından əməkdaşlıq etməyin də faydası yoxdur. Ermənistandan hətta ən prinsipial dəstək qarşılığında belə prinsipial dəstək gözləməyə, müttəfiqlik münasibətlərinə sadiq qalacağına ümid bəsləməyə dəyməz".

**E.Mirzəbəyli bəyan edib ki, Aşqabad Bəyannaməsində yer alan ən önəmli məqamlardan biri də, üzv ölkələrə Azərbaycanın azad edilmiş ərazilərinin qurulması və yenidənqurulma layihələrinə investisiya yatırmaq çağırışıdır:** "Bu çağırış eyni zamanda, İƏT-lə yanaşı KTMT üzvü olan ölkələrin də Azərbaycan ərazilərinin yenidən qurulması prosesində fəal iştirak edəcəklərini, həyata keçirilən və keçirilməsi nəzərdə tutulan layihələrə investisiya yatıracaqlarını ifadə edir. Yəni Ermənistanın de-yure hərbi-siyasi müttəfiqi olan dövlətlər bu ölkənin Azərbaycan torpaqlarında misli görünməmiş vəhşiliklər törətdiyini rəsmən bəyan edirlər. Bərpa prosesinə qatılmaqla erməni vandalizminə, vəhşiliyinə olan münasibətlərini dilə gətirirlər".

**Millət vəkili Arzu Nağıyev də bildirib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin məhz Azərbaycan Prezidenti İlham Əliyevi Zəfər günü münasibətilə təbrik etməsi mühüm məsələdir:** "Əsas məqam ondan ibarətdir ki, Ermənistan da KTMT üzvüdür. O baxımdan Qırğızıstan, Qazaxıstan, Tacikistan və Özbəkistanın bu təbrikə qoşulması təqdirəlayiq haldır. Onlar İslam Əməkdaşlıq Təşkilatının üzvü olmaqla yanaşı, eyni zamanda Ermənistanın üzv olduğu KTMT-nin də üzvləridirlər. Quruma üzv olan dövlətlər Azərbaycana dəyər verir. Türk dünyasında, ümumiyyətlə, Müstəqil Dövlətlər Birliyi məkanında da Azərbaycanı ciddi, öz sözünü demiş, qalib bir dövlət kimi qəbul edir və tanıyırlar".

# Regionda reallıqlar Tehranı doğru yola yönəltdi

## İbrahim Rəisi Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiqlədi



**İƏT-in XV Zirvə Toplantısının ardınca liderlər arasında ikili görüşlər baş tutdu. Bu görüşlərdən ən diqqət çəkəni isə bəlkə də İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında baş tutan görüşü idi.**

Rəsmi Bakı və Tehran arasında davam edən və rəsmi Tehrandan qaynaqlanan soyuq münasibətlər fonunda bu görüşün necə keçəcəyi hər kəs üçün maraqlı idi.

**Görüşlə bağlı fikirlərini "Şərq"lə bölüşən siyasi-şərhçi Turan Rzayev bildirib ki,** Rəisinin sözlərinə Qarabağ məsələsi ilə başlaması və İranda İslam İnqilabının ali rəhbərindən tutmuş, dövlət strukturlarındakı bütün məmurların hamısının mövqeyinin "Azərbaycan Respublikasının ərazi bütövlüyünə xələl gətirilməməlidir və Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır" deməsi Tehranın səhvini anladığını göstərdi. Analitik bildirib ki, bununla da İran Bakıyla gərginliyin uzadılmasının mənasız olduğunu dərk etdi: "Hesab edirəm ki, Rəisi "İnqilabının ali rəhbərindən tutmuş, dövlət strukturlarındakı bütün məmurların hamısının mövqeyini" deyərək bir müddət öncə aktual olan "şirin quyruğu" məsələsini birdəfəlik qapatmaq istəyir. Prinsip etibarilə İranla gərginliyin davam etməsi rəsmi Bakı üçün də arzuolunan hal deyil. Onsuz da məsələnin bu qədər böyüməsi İranın günahı idi. Rəsmi Bakı sadəcə özünü müdafiə edirdi. İndiki halda Azərbaycan üçün İranla gərginlikdən çox əməkdaşlıq daha vacibdir. Məsələ ondadır ki, Türkmənistan ilə Azərbaycan arasında türkmən qazının Azərbaycana ixracı, buradan da Avropa bazarına çıxmasına dair razılıq var. Bunun reallaşması isə hələ ki, İran üzərindən mümkündür".

**Aynurə Pənahqızı**

# Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" təşkilatına etiraz məktubu göndərib




**Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb.**

Agentlikdən "Şərq"ə verilən məlumata görə, adıçəkilən təşkilatın rəsmi veb-saytında (https://rsf.org/en/azerbaijan) iki nəfər jurnalistin Azərbaycanda qətlə yetirilməsi barədə məlumat yerləşdirilmiş, lakin hadisənin hansı səbəbdən baş verməsi və əsl mahiyyəti açıqlanmamışdır. Məktubda bu halın qeyri-obyektiv nəticələrin meydana çıxmasına zəmin yaratdığı vurğulanaraq bildirilib:

"Qeyd edilən məlumat təhrif olunub və qərəzli şəkildə Azərbaycanın əleyhinə istifadə edilir. Ermənistanın 30 il ərzində işğal altında saxladığı ərazilərdə hazırkı vəziyyəti işıqlandıran azərbaycanlı jurnalistlərin həlak olmasının məsuliyyətini Azərbaycanın üzərinə qoymaq cəhdi yolverilməzdir və əsassız yanaşmaların formalaşmasına zəmin yaratmaqdan başqa bir şey deyil."

Məktubda o da vurğulanıb ki, 2021-ci ilin iyun ayının 4-də AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AZTV-nin operatoru Sirac Abışov Ermənistanın 30 illik işğalından azad olunmuş Azərbaycan Respublikasının ərazilərində öz vəzifə borclarını yerinə yetirərkən Kəlbəcər rayonunun Susuzluq kəndində ermənilərin yolun hərəkət istiqamətində yerləşdirdiyi minaya düşərək şəhid olmuşlar. Onlara olan dərin ehtiram və minnətdarlığın ifadəsi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İşğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş bir qrup şəxsin 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında" Sərəncam imzalamışdır.

Qeyd olunub ki, 2021-ci ilin iyun ayının 9-da Medianın İnkişafı Agentliyi tərəfindən baş vermiş hadisəyə dair "Sərhədsiz Reportyorlara" bəyanat ünvanlanmışdır. Göndərilən bəyanatda insident barədə ətraflı məlumat verilmiş və hadisənin dəqiq və qərəzsiz işıqlandırılmasında beynəlxalq vətəndaş cəmiyyəti təşkilatlarının dəstəyinə müraciət edilmişdir.

**Məktubda bildirilib:**

"Biz bir daha sizə müraciət edərək, iki nəfər jurnalistin müharibənin bitməsindən 7 ay sonra Ermənistanın törətdiyi müharibə cinayətinin qurbanı olduqlarını və erməni hərbiçilərinin yerləşdirdikləri minaya düşərək həyatlarını itirdiklərini bildirir və bu faktı nəzərə almağınızda israr edirik."

Məktubda, həmçinin xəbər və məruzələrin hazırlanması zamanı Medianın İnkişafı Agentliyi də daxil olmaqla, çoxsaylı mənbələrdən istifadə edilməsinin onların dəqiqliyi, obyektivliyi və etibarlılığının artırılması baxımından xüsusi əhəmiyyət daşıdığı və ixtilafa yol açan halların aradan qaldırılmasında müstəsna rol oynayacağı diqqətə çatdırılıb.

# Türkmən qazı Avropa bazarına ayaq açır

## Bakının strateji gedişi ölkəmizə xeyli dividendlər gətirəcək

İsmayıl Qocayev

**İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən XV Zirvə Toplantısı maraqlı müzakirələr və görüntülərlə yadda qaldı. Toplantı çərçivəsində təşkilatdaxili məsələlərin müzakirəsi ilə yanaşı, iştirakçı dövlətlər arasında baş tutan görüşlər də diqqət çəkdi. Bu sırada Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran rəhbəri İbrahim Rəisi, Pakistan dövlət başçısı Arif-ur-Rehman Alvinin səmimi söhbətlərini əks etdirən şəkillər maraq yaratdı.**

Noyabrın 28-də Aşqabadda Prezident İlham Əliyevin İran İslam Respublikasının rəhbəri Seyid İbrahim Rəisi ilə əlahiddə görüşü xüsusi önəm daşıyır. İkitərəfli görüş zamanı Azərbaycanla İran arasında Şimal-Cənub nəqliyyat dəhlizi, həmçinin Zəngəzur nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Zəngəzur dəhlizinin reallaşması nəticəsində İranın da bundan faydalanacağı və bu nəqliyyat qovşağından istifadə edə biləcəyi imkanları vurğulandı. Ən əsası isə Aşqabadda Azərbaycan, İran və Türkmənistan arasında qaz mübadiləsinə dair müqavilə imzalandı. Müqaviləyə əsasən, il ərzində Türkmənistandan Azərbaycana İran üzərindən 1,5-2 milyard kubmetr qaz nəql olunacaq. Prezident İlham Əliyev vurğulayıb ki, bundan sonra İranla əlaqələr bütün sahələrdə yüksələn xətlə inkişaf edəcək: "Sənəd imzalandı, bunun da çox böyük əhəmiyyəti var. Bu, tarixi sənəddir. Bir daha İran-Azərbaycan əlaqələrinin nə qədər dərin olmasından xəbər verir. Azərbaycan Türkmənistan qazını İran üzərindən alacaq. Bu, üçtərəfli əməkdaşlıq üçün çox gözəl zəmindir və bizim niyyətimizi göstərir. İmzalanmış bu sənədin iqtisadi və enerji təhlükəsizliyi baxımından da çox böyük önəmi var. Dost kimi, qardaş kimi İran-Azərbaycan əlaqələri haqqında fikir mübadiləsi apardıq. Bu gün müzakirə olunan məsələlər bir daha onu göstərir ki, İran-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir".

"Türkmən qazına "çıxış" tapan Bakının "qaz müharibələri"ndə əli güclənəcək. Bu gediş Transxəzər layihəsinə siyasi dəstəyi artıra bilər. İkinci məqam isə odur ki, İranla yeni səhifə açılır. Tehranın regionda tranzit imkanı artır və bu, İranı Azərbaycanla işləməkdə maraqlı edir"



İran Prezidenti Seyid İbrahim Rəisi də öz növbəsində vurğulayıb ki, Qarabağ məsələsinə münasibətdə də Tehranın mövqeyi şəffaf və birmənalı idi: "İranda İslam İnqilabının ali rəhbərindən tutmuş, dövlət strukturlarındakı bütün məmurlarının hamısının mövqeyi bundan ibarət idi ki, Azərbaycanın ərazi bütövlüyünə xələl gətirilməməlidir: "Əminik ki, Azərbaycan baş nazirinin müavininin və Azərbaycan xarici işlər nazirinin iranlı həmkarları ilə apardıqları danışıqlar, müzakirələr ölkələrimizin münasibətlərini daha da dərinləşdirəcək, irəliyə aparacaq və əlaqələrimiz möhkəmlənəcək".

İran hökumətinin sözçüsü Əli Bahadori də bildirib ki, Iran, Azərbaycan və Türkmənistan arasındakı üçtərəfli müqavilə İranın 5 vilayətini qazla təmin edəcək. Bahadori qeyd edib ki, qonşulara xüsusi diqqətlə beynəlxalq münasibətlər sahəsi artıq bir neçə konkret ölkə ilə məhdudlaşmır.

*Politoloqlara görə, prezidentlərin görüşü Tehran hökuməti ilə yeni əməkdaşlıq mərhələsinin başlanmasıdır.*

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, 2 milyard kubmetr qaz beynəlxalq qaz bazarı üçün o qədər də böyük olmasa da, burada Bakının strateji gedişi xüsusilə diqqət çəkir.** Analitikin qənaətincə, müqaviləyə əsasən türkmən qazı Avropa bazarına ayaq açır: "Bu, uzun illərdir Rusiya və Çin bazarından asılı qalan Türkmənistanın Avropa bazarına ilk addımı hesab edilə bilər. Bakı Transxəzər layihəsinin gerçəkləşməsinə qədər Aşqabada qaz bazarını şaxələndirmək imkanı yaradır. Türk Dövlətləri Təşkilatına yeni qoşulan Türkmənistan bu çətir altında fəaliyyətini daha da stimullaşdıracaq. Türkmən qazına "çıxış" tapan Bakının "qaz müharibələri"ndə əli güclənəcək. Bu gediş Transxəzər layihəsinə siyasi dəstəyi artıra bilər. İkinci məqam isə odur ki, İranla yeni səhifə açılır. Tehranın regionda tranzit imkanı artır və bu, İranı Azərbaycanla işləməkdə maraqlı edir. İrana yeni imkanın yaradılması bu ölkənin Ermənistan siyasətinin tamamilə dəyişməsi demək deyil. Hərçənd, Tehranı regionda müharibədən sonrakı vəziyyəti qəbul etməyə, Zəngəzur dəhlizinə münasibətini dəyişdirməyə, 3+3 formatına qoşulmağa da sövq edir. Beləliklə, Azərbaycan bir sazişlə iki nəticəni əldə edir".

Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov da qeyd edib ki, Türkmənistan-Azərbaycan-İran arasında enerji sahəsində imzalanan saziş rəsmi Bakıya xeyli dividendlər gətirəcək. Politoloqa görə, məsələnin dörd əsas cəhəti mövcuddur: "Birincisi odur ki, sazişdə 2 milyard kubmetr türkmən qazının İran vasitəsilə Azərbaycana çatdırılması nəzərdə tutulur. Bu, çox böyük rəqəmdir. Müqayisə üçün deyim ki, bu il Qərbə təxminən 5 milyard kubmetr qaz ixrac etmişik. İkincisi, sözügedən saziş faktiki olaraq "Cənub-Şimal" və "Cənub-Qərb" tranzit xəttinin yenidən Azərbaycan üzərindən canlanmasıdır. Üçüncüsü, bu sazişlə İran və Azərbaycan geosiyasi ziddiyyətləri kənara qoyaraq iki tərəfin də maraqlarına cavab verəcək. Onları iqtisadi-siyasi sahədə yaxınlaşdıracaq yeni layihələrə start verirlər. Erməni ekspertlərinin dünəndən etibarən narahatlıq keçirmələri heç də təsadüf deyil. İndi Paşinyan "Cənub-Şimal" və "Cənub-Qərb" xəttinin Azərbaycanın kurasiyasında olduğunu daha yaxşı anlayacaq. Əgər rəsmi İrəvan Zəngəzur dəhlizini açsa, o da dividendlər əldə edə biləcək".



# Yeni layihələrə imza atılacaq

## Liderlərin görüşündən belə nəticəyə gəlmək olar ki, Pakistanla iqtisadi əməkdaşlığın miqyası daha da genişlənəcək

İsmayıl Qocayev

**Noyabrın 28-də Aşqabadda Prezident İlham Əliyev Pakistan İslam Respublikasının rəhbəri Arif Alvi ilə görüşüb. Görüşdə iki ölkə arasındakı əlaqələrdən məmnunluq ifadə olunub.**

Artıq keçmişdə qalmış Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar Pakistanın tutduğu qəti və prinsipial mövqeyi xüsusi olaraq qeyd edilib. Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Ələlxüsus, hökumətlərarası komissiyanın rolu vurğulanıb, yaxın zamanlarda komissiyanın növbəti iclasının keçiriləcəyi bildirilib. Həmçinin, son dövrlərdə iki ölkə arasında həyata keçirilən yüksək səviyyəli səfərlərin əhəmiyyətindən bəhs olunub. Ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Dünyada artan islamafobiya meyilləri ilə bağlı narahatlıq ifadə edilib. Bununla yanaşı, prezidentlərin görüşündə ölkələrimiz arasında insanlararası təmasların artırılmasının və turizm, biznes dairələri, mədəniyyət, elm və digər sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyindən danışılıb.

Vurğulamaq lazımdır ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan, onunla diplomatik əlaqələr quran, Bakıda səfirliyini açan ilk dövlətlərdən biridir. Pakistan ölkəmizə ən yaxın dost və qardaş ölkələrdən biri kimi, bütün beynəlxalq təşkilatlarda Azərbaycanı xüsusi olaraq müdafiə edir. Pakistan-Azərbaycan arasındakı münasibətlər özünü strateji tərəfdaşlıq sahəsində də büruzə verir. Azərbaycan xalqı Pakistanın ölkəmizə olan dəstəyini 44 günlük Vətən müharibəsi zamanı da hiss etdi. Rəsmi İslamabad müharibə dövründən sonra da daim Azərbaycanın yanında oldu.

**İki ölkənin yaxın münasibətləri ilə bağlı "Şərq"ə danışan "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov bildirib ki, Pakistan-Azərbaycan əlaqələrinin tarixi kökləri var.** Siyasi şərhçi diqqətə çatdırıb ki, Pakistan hər şəraitdə açıq şəkildə Azərbaycan dövlətinin və xalqının yanında olduğunu bəyan edib: "Dost Pakistanın sadəcə sözlə deyil, öz əməlləri ilə də birmənalı şəkildə Azərbaycanı dəstəkləyib. Nəzərə alaq ki, BMT qətnamələrinin bir neçə məhz Pakistanın qeyri-daimi üzvlüyü dövründə qurum tərəfindən qəbul olundu. Pakistan sırf Azərbaycana görə Ermənistanı dövlət kimi tanımaqdan imtina edib. Bu məqamlar bizim üçün çox əhəmiyyətlidir. Hazırda siyasi-mədəni sahədə əlaqələrimiz kifayət qədər yüksəkdir. Pakistan rəhbərliyi və digər rəsmilər iştirak etdikləri bütün beynəlxalq platformalarda Azərbaycana mənəvi dəstək verib. Bu ölkənin seçilən və yeni vəzifəyə başlayan rəhbərləri mütləq Azərbaycana səfər edirlər. Amma iqtisadi sferada əməkdaşlığımız qənaətbəxş deyil. Liderlərin görüşündən belə nəticəyə gəlmək olar ki, iki dost ölkə arasında əməkdaşlığın miqyası daha da genişlənəcək. Xüsusən, iqtisadi sektorda birgə layihələrə imza atılacaq, ticarət dövriyyəsi artacaq. O cümlədən hərbi sahədə əməkdaşlığı mümkün qədər inkişaf etdirmək lazımdır. Azərbaycanın Pakistandan JF-17 qırıcı təyyarələri alması ilə bağlı da xəbərlər yayılmışdı. Yəni iki ölkənin əlaqələri bütün sferalarda yüksək həddə olmalıdır".

# MEDİA və ADA Universiteti gənc jurnalistlər üçün seminarlara başlayıb





**29 sentyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və "ADA" Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə "New Media" gənc jurnalistlər üçün nəzəri və praktiki biliklər üzrə seminarlar başlayıb.**

"Şərq"in məlumatına görə, proqramın açılış mərasimində çıxış edən ADA Universitetinin prorektor müavini Aygün Hacıyeva bildirib ki, "İxtisasartırma proqramları 2007-2021-ci illəri əhatə edən müddət ərzində 6000-dək diplomat və müxtəlif dövlət qurumlarımı təmsil edən peşəkarlar üçün təlim proqramları və seminarlar təşkil edib. Diqqətə çatdırılıb ki, bu gündən etibarən başlayan və bilavasitə tələbələr üçün nəzərdə tutulan proqram ərzində ADA Universitetinin professor-müəllim heyəti iştirakçılara yalnız nəzəri deyil, eyni zamanda praktiki bacarıqlar da ötürəcəklər.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov vurğulayıb ki, media sahəsində həyata keçirilən islahatların əsas istiqamətləri normativ hüquqi bazanın yenilənməsi və təkmilləşdirilməsi, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin, istifadəçilərin media savadlılığının artırılmasıdır. Qeyd olunub ki, seminarların təşkilində əsas məqsəd bu sahəyə gələn yeni mütəxəssislərin peşə bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

Sonra ADA Universitetinin Proqram administratoru Sona Əliyeva isə iştirakçıları proqram qaydaları ilə tanış edib.

Silsilə seminarların ilk günündə ADA Universitetinin İctimai və Beynəlxlaq münasibətlər məktəbinin müəllimi Şəfəq Mehrəliyeva "Müasir media mühitinə baxış", "Jurnalist missiyası" mövzularında çıxış edib.

*Qeyd edək ki, "Yeni qabiliyyətlər, həmin dəyərlər" başlığı altında keçirilən silsilə seminarlarda Media İnkişafı Agentliyinin "MEDİA Konüllüləri" proqramının fəalları arasından seçilən 17 namizəd müasir media mühiti, jurnalist dəyərləri, peşə etikası və davranış qaydaları, o cümlədən Azərbaycana dair fundamental mövzular (Azərbaycan - Ermənistan münasibətlərinin keçmişi, gələcəyi; tarixi Zəfərimizin milli və regional miqyasda təsiri; Cənubi Qafqazın geosiyasəti; Xəzər hövzəsinin təbii ehtiyatlarının qlobal əhəmiyyəti və s.) üzrə nəzəri biliklər əldə edəcəklər. Həftəlik seminarlarda iştirakçılar jurnalist peşəsində lazımlı olan ünsiyyət bacarıqları, protokol və etiket, vaxtın və stresin idarəedilməsi kimi qabiliyyətlər inkişaf etdirəcəklər. Eyni zamanda, peşəkar xəbər istehsalı mühitində işlək qabiliyyətləri aşılamaq üçün gənc jurnalistlər müəllimlərinin bələdçiliyi ilə qrup şəklində şərti adı "İnfromasiya siyasətinin Ali Baş Komandanı" olan 15 dəq film üzərində işləyəcəklər. Təlim proqramını bitirdikdən sonra seminar məzunlarının Medianın İnkişafı Agentliyinin tövsiyyəsi ilə ölkənin müxətlif media subyektlərində ilkin mərhələdə təcrübə proqramına, daha sonra isə məşğulluğa başlayacaqları gözlənilir.*

# Ermənistan bəyanatın müddəalarına əməl edəcək

## Soçi danışıqları Azərbaycanın qələbəsini bir daha təsdiqlədi



**Diplomatik nailiyyətlər göstərir ki, proseslər Zəngəzur dəhlizinin açılmasına doğru aparır**

**Rusiyanın Soçi şəhərində Prezidenti İlham Əliyev, Rusiya rəhbəri Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasında baş tutmuş üçtərəfli görüş bir daha Azərbaycanın qələbəsinin təsdiqi oldu. Görüş göstərdi ki, Ermənistan məğlub dövlət kimi bundan sonra da bəyanatda nəzərdə tutulan müddəalardan yayına bilməyəcək.**

Rusiya və Azərbaycan prezidentlərinin nitqində, görüşün sonunda imzalanan Bəyanatda bir daha 10 noyabr və 11 yanvar razılaşmalarının bütün bəndlərinin icra olunması, sərhədlərin delimitasiya və demarkasiya işlərinə başlanılması üçün birgə komissiyanın yaradılması, nəqliyyat-logistika şəbəkəsinin açılmasının vacibliyi kimi məsələlər xüsusi yer aldı. Soçi görüşündə imzalanan Bəyanat, prinsipcə, 10 noyabr və 11 yanvar bəyanatlarının məntiqi davamıdır. Prezident İlham Əliyev üçtərəfli görüşdə Azərbaycanın mövqeyini bir daha diqqətə çatdırdı. Ölkə başçısı çıxışında sərhədlərlə bağlı məsələyə də toxundu: "Ermənistan ilə Azərbaycan arasında sərhəd delimitasiya edilməyib. Buna görə biz dəfələrlə açıq bildirmişik ki, delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazırıq. Üstəlik, biz Ermənistan tərəfinə açıq təklif etmişik ki, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə yenidən qonşular kimi yaşamağı təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlayaq". Rusiya Prezidenti Vladimir Putin də mətbuata bəyanatında dövlət başçısı İlham Əliyevin toxunduğu məsələlər ətrafında danışdı. Rusiya prezidentinin fikirləri bir daha göstərdi ki, Zəngəzur dəhlizi layihəsi rəsmi Moskva tərəfindən ən ali səviyyədə dəstəklənir.

**Soçi görüşünün əhəmiyyəti barədə "Şərq"lə fikirlərini bölüşən millət vəkili Anar Məmmədov deyib ki, Soçidə Azərbaycanın əldə etdiyi diplomatik nailiyyətlər göstərir ki, proseslər Zəngəzur dəhlizinin açılmasına doğru aparır.** Deputatın fikrincə, Soçi görüşünün nəticəsi kimi ermənilərin indiyədək Azərbaycana verməkdən imtina etdiyi "mina xəritələri" məsələsində də müsbət irəliləyiş olacaq: "Şübhəsiz, bu, Azərbaycanın böyük siyasi uğurudur. Xüsusilə, qəbul olunan Bəyanatda Rusiya prezidentinin dəfələrlə "dəhliz" ifadəsini işlətməsi, "Qarabağ" ifadəsinə yer verilməməsi, Ermənistan tərəfinin hər zaman iddia etdiyi əsirlər və ya girovlar məsələsinə toxunulmaması, sərhədlərin delimitasiya və demarkasiyasına çağırışlar edilməsi, bütövlükdə müzakirə olunan məsələlər Azərbaycanın mövqeyini tam əks etdirir. Təbii ki, qazanılmış bu uğur rəsmi Bakı və Moskva münasibətlərinin konstruktiv səciyyəli olmaqla qarşılıqlı maraqlar üzərində qurulmuş ikitərəfli əlaqələrin strateji əsası qismində çıxış edir. Bütün bunlar Rusiya-Azərbaycan münasibətlərinin dinamik, davamlı inkişafa malik olduğunu göstərir. Bəzi ermənipərəst qüvvələr isə tərəflər arasındakı regional sabitlik, təhlükəsizlik və inkişafa xidmət edən münasibətlərin pozulmasında maraqlıdırlar. Amma əminliklə söyləmək olar ki, Rusiya-Azərbaycan münasibətlərinin pozulmasında maraqlı olan qüvvələrin cəhdləri iflasa məhkumdur. Bura Nikol Paşinyan tərəfindən atılan düşünülməmiş addımlar da daxildir".

*A.Məmmədov əlavə edib ki, bütövlükdə, Soçidəki üçtərəfli görüşün nəticələri Azərbaycan üçün müsbət və əhəmiyyətlidir. Yeni bəyanatda da məhz Prezident İlham Əliyevin mövqeyi və irəli sürdüyü, Rusiya prezidentinin də dəstəklədiyi məsələlər öz əksini tapdı:* "Bəyanata əsasən tərəflər Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmaq və dövlət sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiyanın yaradılması barədə şərtləşdilər. Eyni zamanda tərəflər regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş Üçtərəfli İşçi Qrupunun fəaliyyətini yüksək qiymətləndirdilər və regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyini vurğuladılar. Soçi görüşü tamamilə fərqli mənzərəni nümayiş etdirdi. Bu görüş 10 noyabr Bəyanatının imzalanmasından ötən bir ilin yekunu kimi də dəyərləndirilə bilər. Ümumilikdə, Soçi görüşü Azərbaycanın diplomatik qələbəsidir. Azərbaycanın güclənən mövqeyi görüşdə imzalanan Bəyanatın müddəalarında öz əksini tapıb. Bütün bunlar göstərir ki, rəsmi Bakı Soçi görüşündə qarşısına qoyduğu bütün məqsədlərə tam nail oldu. Bu qələbədə 2021-ci il noyabrın 16-da sərhəddə erməni təxribatının qarşısının alınması və ordumuzun öz mövqelərini daha da gücləndirməsi böyük rol oynadı".

**İsmayıl Qocayev**

İsmayıl Qocayev



**Soçi görüşü bütün mənalarda Azərbaycan üçün uğurlu oldu. Xatırladaq ki, ötən il noyabrın 10-da imzalanmış bəyanatın ildönümü ərəfəsində Rusiyada üçtərəfli görüşün keçiriləcəyi deyilsə də, Ermənistan Baş naziri Nikol Paşinyan görüşdən müvəqqəti yayına bildi.**

Bundan sonra tərəflərin dekabrın 15-də Brüsseldə görüşəcəyi məlum oldu. Analitiklər Paşinyanın bütün ümidlərini Brüssel görüşünə bağladığını bəyan edirdilər. Manevr imkanlarının tam tükəndiyini aydın dərk edən Paşinyan Avropada ən azından vaxt udmaqla, ağır məğlub durumda hər hansı bir sənədi imzalamaqdan yayınmağa ümid edirdi. Lakin Soçidə baş tutan görüş, imzalanan növbəti bəyanat və Rusiya rəhbərliyinin sərgilədiyi mövqe Paşinyanın ümidlərini alt-üst etdi. Ermənistanın baş naziri Rusiya dövlət başçısına Azərbaycandan giley-güzar etsə də, Kreml rəhbərinin dilindən arzuladığı sözləri eşidə bilmədi. Görüş əsnasında həm Azərbaycan, həm də Rusiya prezidentləri sərhədlərin delimitasiyanın və demarkasiyanın aparılmasının vacibliyindən çıxış etdilər. Qeyd olundu ki, sərhədlərin müəyyənləşməsindən sonra isə tərəflər qarşılıqlı şəkildə biri-birlərinin ərazi bütövlüklərini tanımalı və yekun sülh sazişi bağlanılmalıdır. Tərəflərin ötən ilin noyabrında, bu ilin yanvarında imzalanmış bəyanatlara istinad edəcəyi Soçi sənədində də ifadəsini tapdı.

# Kreml Qərbə mesajını verdi

## "Cənubi Qafqazdakı proseslərin başında Rusiya dayanır"

Rusiya Prezidenti Putin Brüssel görüşünə qədər nəticələrin əldə edilməsinin vacibliyini vurğuladı. O, Brüssel görüşünün sırf deklarativ xarakterli olması üçün bütün addımların atılacağına işarə etdi. Bu baxımdan bir çox ekspertlər Soçi görüşünün Brüsseldə keçiriləcək görüşü əhəmiyyətsiz etdiyini iddia edirlər. Onların fikrincə, indiki halda tərəflərin hansı məsələdə real razılıq əldə etməsi mümkün idisə, Soçi Bəyannaməsində əksini tapdı.

> "Soçidə keçirilən üçtərəfli görüş Brüsseldə baş tutacaq görüşün əhəmiyyətini azaltmaq məqsədi daşıyırdı"

**Ağ Partiyanın sədr müavini Əhəd Məmmədli hesab edir ki, Soçidə Rusiyanın təşəbbüsü ilə keçirilən üçtərəfli görüş Brüsseldə baş tutacaq görüşün əhəmiyyətini azaltmaq məqsədi daşıyırdı.** Analitikin sözlərinə görə, Moskvanın tələsik davranmasının əsas səbəbi dünyaya **"Cənubi Qafqazdakı proseslərin başında Kreml dayanır" mesajını vermək idi:** "Moskva Qərbə göstərir ki, Azərbaycan-Ermənistan arasında əsas vasitəçi güc Rusiyadır. Brüssel görüşü ilə bağlı proqnozlar bəllidir. Hətta öncəsində Soçi görüşü olmasaydı belə Brüsseldə reallaşacaq təmasın ciddi əhəmiyyət kəsb etmədiyi məlum idi. Brüssel görüşünün keçirilməsində məqsəd ATƏT-in Minsk qrupunu yenidən danışıqlara cəlb etməkdir. Qərbdə keçiriləcək görüşlərdə Türkiyə yoxdur. ABŞ və Avropanın qayəsi Türkiyəni proseslərdən kənarlaşdırmaq, əl-qolunu bağlamaqdır. Amma Rusiyanın vasitəçiliyi ilə reallaşan təmaslarda dolayısı yolla Ankara hökuməti də iştirak edir. Moskva regionla bağlı Ankaranın mövqeyini nəzərə alır və Türkiyə ilə hesablaşır. Soçi görüşünün nəticələri barədə isə bir müddət sonra daha ətraflı fikir bəyan etmək mümkün olacaq".

# İnformasiya təhdidlərinin qarşısı alınacaq

## Rəqəmsal Media Mərkəzi fəaliyyətə başlayıb

**"Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyinin nəzdində Rəqəmsal Media Mərkəzi (The Digital Media Center) fəaliyyətə başlayıb".**

Bu barədə "Şərq"ə "Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyinin sədri, tanınmış jurnalist Fuad Hüseynzadə məlumat verib. Birlik rəhbəri bildirib ki, Rəqəmsal Media Mərkəzi müxtəlif ölkələrin media qurumları ilə çoxşaxəli əməkdaşlıq edəcək: "Mərkəz üzərindən xarici ölkələr arasında media platformaları yaradılacaq, informasiya mübadiləsi ediləcək, forumlar və s. keçiriləcək. Əsas fəaliyyət istiqamətlərindən biri də informasiya müharibəsinin aparılması, xüsusən informasiya savaşında iştirak etmək üçün xarici və yerli mobil qrupların hazırlanmasıdır. Məqsəd ölkəmizə qarşı informasiya təhdidləri və basqıları, o cümlədən qarayaxmalar zamanı xaricdəki meda tərəfdaşlarımız vasitəsilə beynəlxalq mediada gündəmi operativ şəkildə öz xeyrimizə dəyişməkdir. Bizim strategiyamız ancaq müdafiə mövqeyində qalıb cavab yazıları hazırlamaq deyil. Hücum mövqeyində olub, ölkəmizin düşmənlərini dünya mediasında ifşa etməkdir".

**İsmayıl**

# Böhran dərinləşir, ölkə iflic olub

## Gürcüstanda hakimiyyətin iki seçimi qalır



**Dünən Gürcüstanın üçüncü prezidenti Mixail Saakaşvilinin məhkəməsi keçirilib. O, məhkəmə zalından əhaliyə müraciət edib. Saakaşvili çıxışında saxlanıldığı ana qədər əhali ilə ünsiyyətdə olduğunu və insanların çox ağır vəziyyətdə olduğunu bildirib:**

"Vətənimizin qürur hissi üçün darıxmamısınızmı? İnkişaf tempi üçün darıxmamısınızmı? Yenilik və yenidən qurulma üçün darıxmamısınızmı? Sevgi üçün darıxmamısınızmı? Qələbəni qeyd etmək üçün darıxmamısınızmı? Əgər bütün bunlar üçün darıxmısınızsa, o zaman indi baş verənləri birlikdə bitirməliyik. İlk növbədə hazırda çöldə duran insanları salamlamaq, Gürcüstan cəmiyyətini salamlamaq istəyirəm və sizlərə sual vermək istəyirəm. Mən bir neçə gün Gürcüstanda sərbəst gəzdim, əsir götürülməmişdən əvvəl insanlarla ünsiyyətdə olmaq imkanım oldu və gördüm ki, insanlar çox əsəbidirlər, insanlar ümidsizdirlər, insanlar praktiki olaraq gülümsəmirlər, insanlar çox bədbəxtdirlər və mən sizdən, əziz gürcü xalqımdan soruşmaq istəyirəm - Vətənimizin qürur hissi üçün darıxmamısınızmı? İnkişaf tempi üçün darıxmamısınızmı? İndi baş verənləri birlikdə bitirməliyik. Mən Ukraynada mühüm vəzifə tuturdum, üstəlik, ən azı iki dəfə Ukraynada baş nazirlik təklifini rədd etmişəm. Mən heç vaxt Ukraynada olduğum qədər yaxşı vəziyyətdə olmamışam, evim, həyətim, yüksək maaşım, hörmətim var idi, mən bütün dünyada mühazirələr oxuyuram, məsələn, Meksikada Vergi Məcəlləsi ilə bağlı mühazirə oxuyurdum, lakin mən hər şeyi bir kənara qoydum, müvəqqəti imtina etdim və Gürcüstana gəldim, orada dəqiq bilirdim ki, mən yolda öldürülə bilərdim və ya çatanda öldürülə bilərdim, həmçinin çıxılmaz vəziyyətə düşə bilərdim. Lakin mən 17 ildən çox vaxt keçirdiyim Ukraynanı həqiqətən sevirəm, amma Gürcüstanı dəli kimi sevirəm".

***"Ya Saakaşvilini həbsdə saxlayıb tərəfdarlarını zərərsizləşdirəcək, ya da onu ölkədən çıxmaq şərti ilə azadlığa buraxacaq"***

Qeyd edək ki, Tbilisidə eks prezident Mixeil Saakaşviliyə dəstək məqsədi ilə etiraz aksiyası keçirilib. Aksiyada Marneulidən olan bir nəfər müxalifət tərəfdarı saxlanılıb. Bu barədə 24News.ge xəbər portalına saxlanılan şəxsin qardaşı, "Vahid Milli Hərəkat"ın üzvü Ceyhun Qarayev məlumat verib. Onun sözlərinə görə, Eltun Qarayev Tbilisi Şəhər Məhkəməsi yaxınlığında keçirilən aksiya zamanı polisə itaətsizlik ittihamı ilə saxlanılıb və Varketili Polis Bölməsinə aparılıb. Qeyd edək ki, Daxili İşlər Nazirliyi Tbilisi Şəhər Məhkəməsi yaxınlığında İnzibati Xətalar Məcəlləsinin 166 və 173-cü maddələri ilə 15 nəfərin saxlanıldığını bildirir. Xatırladaq ki, aksiya zamanı müxalifət lideri Gigi Uqulava da saxlanılıb. Mixeil Saakaşvili məhkəmənin həyətində tərəfdarları tərəfindən qarşılanıb və "Mişa, Mişa" şuarları ilə yola salınıb. Qeyd edək ki, məhkəmədən sonra sabiq prezident Qori Hərbi Hospitalına aparılıb.

**Gürcüstanda yaşanan son prosesləri siyasi-şərhçi Turab Rzayev "Şərq"ə analiz edib. Analitik hesab edir ki, Gürcüstanda hakimiyyət əsas hədəfə nail olub:** "Onlar üçün əsas məsələ ikinci dərəcəli hədəflərdir. İkinci hədəf odur idi ki, seçkidə qələbəsini təmin etsinlər. Buna görə də Saakaşvilini həbsdə saxladılar və iğtişaşlar və s. məsələlərlə bağlı hakimiyyətdə ciddi mübarizə yarada bilmədilər. Hakimiyyət seçkidə qələbəsini təmin etdi. Həm Qərb ölkələri, həm ATƏT-in müşahidə missiyası, həm də ki, bəzi müxalifət liderlərinə bunu təsdiqlədə bildi. Bundan sonra Saakaşvilinin mübarizə aparması daha çətin olacaq. Ancaq hakimiyyət yenə də küçə yürüşlərindən, Saakaşvili tərəfdarlarının yürüş keçirməsindən narahatdır. Buna görə də düşünürəm ki, hakimiyyət indi seçim qarşısındadır. O ya Saakaşvilini həbsdə saxlayıb onun tərəfdarlarının daha çox konseltasiyasına, eyni vaxtda Qərbdə təzyiqlərin artırılmasına nail olacaq, ya da ortaq bir nöqtə tapacaq. Ortaq yol nə ola bilər? Saakaşvilini ölkədən çıxarmaq şərtilə həbsdən azad edilməsi və Ukraynaya ekstradisiya olunmasıdır. Saakaşvilinin Ukrayna vətəndaşlığı da var. Hesab edirəm ki, burada həlledici iki məqam olacaq. Bunlardan birincisi, Qərbin təzyiqləridir, hansısa şəkildə güclü təzyiqlə Gürcüstan Saakaşvilini sərbəst buraxmağa vadar edəcəksə, bu halda düşünürəm ki, hakimiyyət Saakaşvilini azad etməyə məcbur olacaq. Çünki Gürcüstan maddi yardımlara görə Qərbdən çox asılıdır. Bundan əlavə, Qərbin Gürcüstan üzərində siyasi təzyiq mexanizmləri var".

**Aynurə Pənahqızı**



**Xəzər dənizi ekoloji fəlakətin astanasındadır. Dənizin Bakı hissəsində suyun geri çəkilməsi müşahidə edilib. Oxu.Az-ın əməkdaşının lentə aldığı fotolarda dənizdə suyun səviyyəsinin xeyli düşməsi öz əksini tapıb.**

# Xəzər Urmiyanın taleyini yaşamasın

## Dəniz ekoloji fəlakət astanasındadır

Qeyd edək ki, Xəzər dənizinin səviyyəsinin dəyişməsində başlıca amil onun hövzəsinin iqlimi hesab olunur. Dəniz dibində baş verən tektonik hərəkətlər də səviyyənin dəyişməsinə təsir göstərən amillərdəndir. Son 3500 il ərzində dənizin səviyyəsinin dəyişməsi 15 metr, son 200 ildə 3,5 metr təşkil edib. 1977-1995-ci illər ərzində dəniz səviyyəsində 2,5 metr geriçəkilmələr müşahidə edilib.

2005-ci ildən Xəzər dənizinin səviyyəsində enmələr müşahidə olunmaqdadır. Dəniz səviyyəsində müşahidə olunan müntəzəm enmə 2015-2017-ci illər ərzində müvəqqəti olaraq dayansa da, 2018-ci ildən Xəzərin səviyyəsi yenidən enməyə başlayıb.

**Maraqlıdır, Xəzər dənizini ekoloji fəlakətdən xilas etmək üçün hansı qabaqlayıcı tədbirlər görülməlidir?**

Sualımızı cavablandıran ekspert Məhərrəm Zülfüqarlı "Şərq"ə Xəzərdə bu kimi halların hər zaman müşahidə olunduğunu bildirib:

"Amma buna təbii prosesdən əlavə suni amillər - suvarma sistemlərinin çoxalması, su bəndlərinin çəkilməsi də ekoloji tarazlığa mənfi təsir göstərir. Azərbaycan ərazisindən Xəzərə tökülən Kür-Araz çaylarında suyun səviyyəsinin azalması da səbəblər sırasındadır".

**M.Zülfüqarlı gələcəkdə Xəzəri qorumaq üçün sahilyanı beş ölkənin eyni məsuliyyəti daşıdığı, bununla bağlı öz aralarında müqavilənin olduğunu xatırladıb:**

"Su bəndləri çəkən zaman bu ölkələr bir-biri ilə razılığa gəlməlidirlər. Bu, gələcəkdəki fəsadların qarşısını almaq üçün olduqca mühümdür. Bir ara Orta Asiyada tamamilə quruyan Aral gölü, deyilənə görə, hazırda yenidən canlanır. Bunlar təbii proseslərdir".

*Alim ölkəmiz üçün Xəzər dənizi və Urmiya gölünün önəmli olduğunu vurğulayıb və hər ikisindəki mövcud duruma diqqət çəkib:*

"Urmiya gölü Cənubda fəlakətlə üz-üzədir. Fotolardan göründüyü kimi Xəzərdə də vəziyyət o qədər də ürəkaçan deyil. Dövlət səviyyəsində bu məsələyə diqqət göstərilməli, problemin həlli yolları tapılmalıdır".

**Günəş Mərd**



# Rusiya-Azərbaycan əlaqələri bütün sahələri əhatə etməkdədir

## Önəmli amillərdən biri də odur ki, iki ölkənin rəsmi şəxsləri arasında qarşılıqlı səfərlərin dinamikası yüksək səviyyədədir

**"Rusiya-Azərbaycan münasibətləri bütün parametrlər üzrə yüksək inkişaf tempinə malikdir. Cənab Prezident İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfəri həm Rusiya-Azərbaycan arasında qarşılıqlı fəaliyyətin, həm də regional problemlərin önəmli istiqamətlərinin müzakirə edilməsi baxımından olduqca vacibdir.**

Rusiya-Azərbaycan əlaqələri siyasi, iqtisadi, humanitar, təhsil və digər sahələrdə sürətlə inkişaf edərək, münasibətlərimiz strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq xarakteri daşıyır".

Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Şəbhəm Həsənova deyib.

**Politoloq qeyd edib ki, önəmli amillərdən biri də odur ki, iki ölkənin rəsmi şəxsləri arasında qarşılıqlı səfərlərin dinamikası yüksək səviyyədədir:** "Son bir həftədə Azərbaycan Prezidenti Rusiya hökuməti sədrinin müavinini, Rusiya Elmlər Akademiyasının prezidentini, Rusiya Prezidentinin humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəsini qəbul edib. Nəzərə alsaq ki, iki ölkə arasında ticarət dövriyyəsi yüksəlir, deməli, iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinə çox böyük maraq var. Bu baxımdan da sadəcə siyasi sahədə deyil, iqtisadi sahədə də ciddi addımlar atılır. Pandemiya və bundan irəli gələn iqtisadi məhdudiyyətlərə baxmayaraq, cari ilin ilk doqquz ayı ərzində Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 11 faiz artıb. Həftə ərzində isə Rusiya Ekspert Mərkəzinin, "Rosekzimbank"ın, ümumilikdə, Rusiyanın 30-dan çox şirkətinin iştirak etdiyi biznes konfransı keçirilib".

Bu səfərlərin ölkələrimiz arasındakı münasibətlərin inkişafına çox mühüm töhfə verdiyini deyən politoloq əlavə edib ki, həm Rusiya, həm də Azərbaycan qarşılıqlı əlaqələrin bütün istiqamətlər üzrə inkişaf səviyyəsinin daha da yüksəldilməsində maraqlıdırlar: "Hazırda Azərbaycanla Rusiya arasında 7 yol xəritəsi icra olunur ki, bu da iqtisadiyyat və humanitar sahələrin əksər istiqamətlərini özündə ehtiva edir. Təhsil sahəsində də qonşu ölkələrin münasibətləri yüksək səviyyədədir. Azərbaycanda 300-dən çox rusdilli məktəb var. Azərbaycan məktəblilərinin 34 faizi rus dilində təhsil alır və ya rus dilini öyrənir. Rusiyada azərbaycanlı tələbələrin təhsil almasına əlverişli şərait yaradılıb ki, 15 minə yaxın azərbaycanlı gənc Rusiyada təhsil alır. Azərbaycan tərəfi ötən bir illik zaman kəsiyində müharibənin mənfi nəticələrinin aradan qaldırılması, nəqliyyat və kommunikasiyaların açılması məsələsində maksimum konstruktiv mövqe sərgiləyib. İndiki məqamda isə regionda gələcək normal həyat üçün tarixi şərait mövcuddur. 44 günlük müharibədən sonra imzalanmış 2020-ci il 10 noyabr bəyanatından keçən zaman ərzində baş verən kiçik insidentlərin sistem xarakteri daşımadığını nəzərə alsaq, indiyə qədər Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə ciddi insident baş verməyib. Azərbaycan-Ermənistan dövlət sərhədində yaşanan toqquşmalara, risklərə nəzarət etmək, onları minimuma endirmək və yekun sülh razılaşması üzərində işləməklə bağlı məsələlərin müzakirəsini, habelə üçtərəfli formatda müzakirəsini tələb edir".

**Aynurə Pənahqızı**

# Köç dalğası artır

## Son 4 ildə Ermənistanda rekord göstərici qeydə alınıb

**44 günlük müharibədən sonra ekspertlər Ermənistandan mühacirətin kəskin artacağını proqnozlaşdırırdılar. Bu köç 2021-ci ilin fevralında Rusiya Ermənistanla hava sərhədini bir ay müddətinə açan zaman yaranan ajiotajla təsdiqləndi. Adi vaxtlarda 140-180 dollar olan biletlərin qiyməti 300-400 min drama qədər qalxdı.**

Buna baxmayaraq, fevral ayında "Zvartnots" hava limanı Rusiyaya gedənlərlə dolu idi. "Sputnik Ermənistan"ın əməkdaşı Janna Poqosyan yazıb ki, təkcə hava limanında deyil, həm də Şengen ölkələrinə və ABŞ-a getmək üçün sənədlər hazırlayan viza mərkəzlərinin önündə növbələr var: "Hətta bəzi ölkələrin səfirlikləri, məsələn, Yunanıstan Ermənistan vətəndaşları üçün uzunmüddətli viza almaq prosesini asanlaşdırdılar. Əgər koronavirus pandemiyasından əvvəl 15 iş günü ərzində viza verilirdisə, indi Yunanıstan səfirliyi cəmi 2-3 iş günü ərzində viza verir". Müəllif əlavə edib ki, bu ilin son 9 ayında Ermənistanı 103 min nəfər tərk edib və geri qayıtmayıb: "İrəvanın "Zvartnots" hava limanında Rusiya istiqamətləri hələ də doludur. İnsanların sadəcə işləməyə getmədiyini qəbul etməliyik. Müstəqillikdən sonra 30 il ərzində (1991-2020) Ermənistana köçənlərin sayı ilə ölkədən gedənlərin sayı arasındakı fərq mənfi 1 milyon 250 min nəfərdir". Məlumat üçün deyək ki, 2017-ci ilin ilk 9 ayında Ermənistanı 75 min nəfər, 2018-ci ildə 42 min, 2019-cu ildə isə 36 min nəfər tərk etmişdi. İnqilabdan sonra miqrasiya faizi azalmışdı. Amma indi mənzərə başqadır və bunu birmənalı demək mümkün deyil. Səbəb inqilabdan gözləntilərin özünü doğrultmaması, ya da müharibə və ya müharibədən sonrakı xaosla bağlıdır.



***Bu ilin ilk 6 ayında 22 min erməni Rusiya vətəndaşlığını alıb***

**Ermənistanda geniş vüsət almış kütləvi köçlə bağlı "Şərq"ə danışan siyasi şərhçi Anar İmanov düşmən ölkədəki xaosun ilk növbədə idarəçiliklə bağlı olduğunu bildirib:** Əhali ölkənin gələcəyini görmədiyi üçün xaricə üz tutur, nəticədə əhalinin sayı sürətlə azalır. Ermənistan qurumlarının statistikalarına görə, 2020-ci ildə 5 min 274 nəfər olan təbii artım 2021-ci ildə 3 minə düşüb. "Eurasianet" analitiklərinin fikrincə, Ermənistan iqtisadiyyatının vəziyyəti mühacirətin əsas səbəbi olaraq qalır. Lakin son vaxtlar səbəblər sırasına müharibədən sonrakı çağırışlar da əlavə edilib. Erməni mətbuatının yazdığına görə, əhali əsasən Rusiyaya axışır. Bu ilin ilk 6 ayında 22 min erməni Rusiya vətəndaşlığını alıb. Bu, son 4 ildə rekord göstəricidir. Rusiyanın Miqrasiya Xidmətində qeydiyyatda olan Ermənistan vətəndaşlarının da sayı artıb. İlin ilk altı ayında Rusiyada 300 minə yaxın insan hüquqi status almaq prosesinə başlayıb. Ötən ilin eyni dövründə isə bu rəqəm 200 minə belə çatmırdı. Demoqrafik tendensiyaları öyrənən Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu 2050-ci ilə qədər Ermənistanda əhalinin sayının kəskin azalacağını proqnozlaşdırır".

**A.İmanov deyib ki, gələcəkdə Ermənistanı çətin günlər gözləyir:** "Bu gedişlə Ermənistan yer üzündən silinə bilər. Əslində, süni şəkildə yaradılmış "dövlət" üçün bu sonluq məntiqi olardı. Bu sonun başlanğıcının əsasını hakimiyyətə gələn sarkisyanlar və koçaryanlar qoyub. Bundan sonra Ermənistana nə Paşinyan, nə də başqası kömək edə bilər. Qonşularla sülh şəraitində yaşamaq əvəzinə, illərlə qonşularına qarşı məkrli siyasət yeridən Ermənistan öz cəzasını çəkməkdədir".

**İsmayıl Qocayev**

# Əfqanıstan humanitar böhran yaşayır

## "Taliban" Avropa İttifaqından yardım istəyib

**Qətərin paytaxtı Dohada "Taliban" rejiminin Xarici işlər naziri Emirhan Muttaki ilə Avropa İttifaqının Əfqanıstan üzrə xüsusi elçisi Tomas Niklasson arasında görüş keçirilib. Görüş zamanı tərəflər Əfqanıstana humanitar yardım, hava limanlarının açılması, qızların təhsili kimi müxtəlif mövzularda danışıqlar aparıb. Avropa İttifaqının Komissiyası bəyanatında bu görüşün müvəqqəti "Taliban" hökumətini tanıması demək olmadığını xüsusi vurğulayıb.**

Bəyanata görə, hər iki tərəf Əfqanıstanda hava limanlarının açıq saxlanmasının vacibliyini qeyd edib. Müvəqqəti hökumət hava limanlarının fəaliyyətini davam etdirmək üçün Aİ-dən yardım istəyib. Tərəflər həmçinin Əfqanıstanda humanitar vəziyyətin pisləşməsi ilə bağlı narahatlıqlarını ifadə edib. Aİ tərəfi əfqan xalqına humanitar yardım göstərmək niyyətini ifadə edərkən, müvəqqəti hökumətdən dövlət işçilərinin aylardır ödənilməyən maaşlarının ödəmə öhdəliyini xatırladıb.

Mövzuyla bağlı BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Əfqanıstanda "Taliban" hakimiyyətinin çətinliklərlə üzləşməsi təbii haldır. Politoloq qeyd edib ki, uzun illərdən sonra sərbəst idarəçilik fəaliyyəti yürütmək istər idarəçilik, istərsə də humanitar və siyasi baxımdan asan iş deyil: "Bu fəaliyyətdə Əfqanıstana yaxın dövlətlərin, o cümlədən Avropa birliyi ölkələrinin də maraq dairəsində olmalıdır. Bu baxımdan, Avropa İttifaqının Əfqanıstandakı humanitar məsələlərə diqqət ayırması və dəstək xarakterli fəaliyyət aparmaq cəhdlərini normal qarşılamaq lazımdır. Aİ-nin bu fəaliyyəti "Taliban" hökumətinin tanınması kimi qəbul edilməməsinə gəlincə qeyd etmək lazımdır ki, tək Aİ yox, hələlik heç kim "Taliban" hökumətini tanımayıb. Bunun üçün hələlik tez olduğunu düşünürlər, çünki əvvələ "Taliban" rəsmi şəkildə terror təşkilatı kimi qəbul edilir. Bundan əlavə "Taliban" hələlik özünü dünya birliyi qarşısında reabilitasiya etməli, özünü dünya birliyinin qəbul edəcəyi şəkildə uyğunlaşdırmalıdır. Görünən odur ki, Aİ və digər maraqlı ölkələr də "Taliban"ı bu fəaliyyətdə dəstəkləyirlər və onları real güc hesab edirlər. Hesab etmək olar ki, "Taliban" dünya birliyinin onlara olan ümidini doğruldacaq. Hesab etmək olar ki, mövcud çətinliklər müvəqqətidir. Ehtimal ki, "Taliban " hakimiyyəti Əfqanıstanın təbii resurslarını əfqan xalqının rifahına xərcləyərək və dost hesab etdiyi ölkələrlə həm iqtisadi, həm də siyasi sahədə normal əlaqələr quracaqdır".



**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**



# Dost da, düşmən də bəlli olur

## Azərbaycan hər zaman regional əməkdaşlığa xüsusi önəm verir

İsmayıl Qocayev

**İqtisadi Əməkdaşlıq Təşkilatının Aşqabadda keçirilən 15-ci zirvə toplantısı siyasi-iqtisadi və geosiyasi məna yükü daşıyan önəmli hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin toplantıda çıxışı, digər ölkə rəhbərləri ilə ayrı-ayrılıqda görüşü Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirməklə yanaşı, həm ikitərəfli münasibətlərin, həm də müsəlman-türk dünyası ilə əlaqələrin möhkəmlənməsinə xidmət edir.**

Hökumətlərarası regional təşkilat olan İqtisadi Əməkdaşlıq Təşkilatının əsas məqsədi üzv dövlətlərin və bütövlükdə bölgənin davamlı iqtisadi inkişafına töhfə verməkdən ibarətdir. 1964-cü ildə Türkiyə, Pakistan və İran tərəfindən "Regional İnkişaf üçün Əməkdaşlıq" kimi yaradılan təşkilat, 1985-ci ildə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) olaraq yenidən qurulub. Hazırda İƏT-in 10 üzvü var: -Azərbaycan, Türkiyə, Pakistan, Əfqanıstan, İran, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan. Azərbaycan 1992-ci ildə təşkilata üzv olub. Bu müddətdə təşkilat işində fəallığı ilə seçilib, xüsusilə beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq qurulmasına mühüm töhfələr verib. Rəsmi Bakı getdikcə daha böyük siyasi arealda və diplomatik meydançalarda, mötəbər tribunalarda öz haqq sözünü deyir, mövqeyini bəyan edir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq edir. Hazırda ölkəmiz Qoşulmama Hərəkatının dönəm sədridir və sədrlik dönəmində bu qurum Prezident İlham Əliyevin təşəbbüsü ilə bir sıra mühüm ilklərə, o sırada pandemiya ilə mübarizədə tarixi təşəbbüslərə imza atıb. Həmin təşəbbüslər BMT səviyyəsində xüsusi sessiyalarda müzakirəyə çıxarılıb. Müxtəlif səviyyələrdə qərarlar qəbul olunub. Azərbaycanın təmsil olunduğu qurumların hamısında məxsusi, vazkeçilməz, hətta açar rolu var. Son illər Azərbaycan faktiki surətdə Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Zəngəzur dəhlizinin reallaşması ilə bölgənin nəqliyyat sektorunda sözsüz ki, yeni imkanlar açılacaq. Bundan təkcə İƏT, Türk Dövlətləri Təşkilatı yox, 120-dən çox ölkəni birləşdirən Qoşulmama Hərəkatının bir çox başqa üzvləri də faydalana biləcək. İqtisadi bağların qarşılıqlı şəkildə artması isə ölkələrimiz arasında siyasi bağları da artıracaq ki, bu da öz növbəsində üzv ölkələrin milli və energetik təhlükəsizliyini möhkəmləndəcək.

Amerikalı ekspert Piter Teysin dediyi kimi, "İƏT-in bəyannaməsi Prezident İlham Əliyevin görkəmli liderliyinin simvoludur". Təys bildirib ki, İƏT-in XV Zirvə Toplantısı Avrasiya qitəsində, xüsusilə sənaye və iqtisadi inkişaf sahəsində əsas prioritetləri müəyyən edən böyük qlobal tədbirdir: "İƏT-ə üzv dövlətlərin bu münasibətlə təsdiqlədiyi və İkinci Qarabağ müharibəsində Azərbaycanı şanlı qələbə münasibətilə təbrik edən bəyannamə Ermənistanı məğlubiyyətini etiraf etməyə və Azərbaycanla əməkdaşlığın yeni səhifəsini açmağa çağırızdır. İƏT-in bəyannaməsi Prezident İlham Əliyevin görkəmli liderliyinin simvoludur". Onun sözlərinə görə, Türkmənistan və digər İƏT-ə üzv dövlətlər Zəngəzur dəhlizindən onları Türkiyə, Qara dəniz regionu və Avropa bazarları ilə birbaşa birləşdirəcək körpü kimi istifadə etməklə Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsini səbirsizliklə gözləyirlər: "Ermənistan İƏT-ə üzv dövlətlərlə artan iqtisadi tərəfdaşlığı qəbul etmək üçün addım atmalı və Ermənistanın xaricdə imicini korlayan kölgə iqtisadiyyatından əl çəkməlidir".

*İƏT-ə üzv dövlətlər Zəngəzur dəhlizindən onları Türkiyə, Qara dəniz regionu və Avropa bazarları ilə birbaşa birləşdirəcək körpü kimi istifadə etməklə Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsini səbirsizliklə gözləyirlər*

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, Azərbaycan hər zaman regional əməkdaşlığa xüsusi önəm verib. Deputatın sözlərinə görə, Azərbaycanın fəal münasibətdə olduğu beynəlxalq qurumlardan biri də İqtisadi Əməkdaşlıq Təşkilatıdır:** "Ölkəmizin İƏT-in fəal üzvü olması, qlobal platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığı beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir: "Regional təşkilat olan İqtisadi Əməkdaşlıq Təşkilatının əsas məqsədi üzv dövlətlərin və bütövlükdə bölgənin davamlı iqtisadi inkişafına töhfə verməkdən ibarətdir. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə irəli sürdüyü ideyalar zamani gəldikcə həyata vəsiqə qazanır. Ulu Öndər 2002-ci ildə İstanbulda keçirilən İƏT üzv ölkələrinin dövlət və hökumət başçılarının 7-ci Zirvə Görüşündə İƏT-in Tədqiqat Mərkəzinin Bakıda yaradılması təklifi ilə çıxış etmişdi. İƏT-in Tədqiqat Mərkəzinin əsas məqsədi iqtisadi tədqiqatlara əsaslanan regional əməkdaşlığın qurulması üçün İƏT-ə və üzv ölkələrə yardım etməkdir. Zəngəzur dəhlizi layihəsinin reallaşması regionun nəqliyyat sektorunda yeni imkanlar yaradacaq. Artıq Azərbaycan öz maliyyə resurslarına arxalanaraq, azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma işlərinə başlayıb, sıfırdan yeni şəhər və kəndlər salmağa başlayıb. Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji bölgələri elan edilməsi kontekstində Azərbaycan Prezidenti İƏT-də qurucu lider kimi tanınır".

**Politoloq Şəbnəm Həsənova da vurğulayıb ki, Azərbaycan üzv olduğu, yaxud da sədrlik etdiyi beynəlxalq təşkilatlarla işini qarşılıqlı faydalı əməkdaşlıq kontekstində elə qurub ki, sadəcə, bu təşkilatlardan yararlanmırıq, həm də onların işinə töhfə veririk. Prezident İlham Əliyevin irəli sürdüyü bütün innovativ fikirlər və təşəbbüslər üzv olduğumuz və ya sədrlik etdiyimiz təşkilatların nüfuzunun daha da yüksəldilməsinə xidmət edir:** "Zirvə Toplantısının ardınca dövlətimizin başçısının ayrı-ayrı dövlət rəhbərləri ilə ikitərəfli kontekstdə keçirdiyi görüşlərdə də önəmli məsələlər dilə gətirildi, müzakirə olundu. Hesabatlarda "Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları sənədlərdə yer almış dəhliz" ifadəsinin öz əksini tapması Zəngəzur dəhlizi məsələsinin İƏT regionunda uğurla təşviq edilməsinin və qəbul edilməsinin bariz nümunəsidir. Bu günə kimi Rusiya Prezidentinin nitqində də dəfələrlə kommunikasiya və dəhlizlərin bərpası məsələsinə toxunulub. Soçi görüşündən sonra Aşqabad sənədində yer alan məqamlar, burada səsləndirilən fikirlər də ondan xəbər verir ki, Zəngəzur dəhlizinin daha qısa zaman çərçivəsində reallaşma imkanı mövcuddur. Zəngəzur dəhlizi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli parçasına çevriləcək ki, birbaşa avtomobil əlaqəsinin istifadəyə verilməsi həm də təşkilata üzv olan ölkələr arasında əməkdaşlığın genişləndirilməsi işinə də töhfə verəcək. Regionda ard-arda yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturaları qurulur və qürurverici məqamdır ki, onların müəllifi Prezident İlham Əliyevdir. Prezident hər bir beynəlxalq kürsüdə olduğu kimi Aşqabadda keçirilən İƏT-in XV Zirvə Toplantısında da Azərbaycan xalqının maraqlarını əsas tutaraq dost və tərəfdaş ölkələrlə münasibətlərimizi daha da dərinləşdirdi.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Sonu olmayan ölkə...

## Ermənistanda ksenofobiya bütün sosial qatlarda müşahidə olunur

**"Ermənistanın "Erkir tsirani" (Ərik ölkəsi) partiyasının rəhbəri, eks deputat Zaruhi Postancyan yenidən radikal fikirləri ilə gündəmə gəlib. Məlum olduğu kimi, Ermənistanda ksenofobiya və irqi ayrı-seçkilik ən yüksək səviyyədədir.**

Müstəqillik əldə etdikdən sonra monoetnik dövlət quran Ermənistanda digər xalqın nümayəndələrinə yuxarıdan aşağı baxmaqla yanaşı, faşizmə xas olan mövqe də nümayiş etdirilir. Müxalifəti təmsil edən Postancyan daha öncə Baş nazir Nikol Paşinyanı xain və satqın adlandırmış və onu Ermənistanın yarısını verməyə hazırlaşdığını bildirmişdi".

**Bu sözləri "Şərq"ə açıqlamasında STM-nin baş məsləhətçisi, siyasi analitik İlyas Hüseynov deyib. Politoloq bildirib ki, hazırda Zaruhi Postancyanın adı 4 cinayət işində hallanır, bunlardan biri konkret olaraq Baş nazir Nikol Paşinyanla bağlıdır:** "Cari ilin avqustun 5-də gecə saat 3 radələrində İrəvanın Arabkir inzibati rayonunda "Ərik ölkəsi" partiyasının lideri Zaruhi Postancyanın ərinin "Mercedes" markalı avtomobilini yandırıblar. Partiya rəhbəri müxalif mövqeyini və daim hazırkı hakimiyyətin tənqid edilməsi ilə çıxış etdiyini nəzərə alaraq bunda sui-qəsd gördüyünü qeyd etmişdi. Hakimiyyəti tənqid etməklə hər zaman Ermənistanda sosial şəbəkələrdə müzakirə obyektinə çevrilən Zaruhi Postancyanın sonuncu çıxışı heç bir hədd tanımır".

İ.Hüseynov qeyd edib ki, Ermənistanda ksenofobiyanın müxtəlif təzahürləri mövcuddur və bu hal bütün sosial qatlarda müşahidə olunur: "Ermənistanda dini, irqi, milli dözümsüzlük ən yüksək həddədir. Buna rəğmən, türklərə qarşı patoloji nifrət ən yüksək səviyyəyə çatıb. O, sivil dünyada bu cür aşağılayıcı ifadələrin qəbuledilməz olduğunun fərqində olmalıdır. Zaruhi Postancyan növbəti dəfə milli mənsubiyyətindən doğan nasist xislətini göstərməklə Ermənistanda azərbaycanafobiya və türkafobiyanın geniş yayıldığını nümayiş etdirdi. Türklərə qarşı irqçi ifadələr işlədilməsi Azərbaycana və Türkiyəyə kifayət qədər geniş arqumentasiya verir ki, Avropa İnsan Haqları Məhkəməsinə müraciət olunsun. Ermənistanda nifrət nitqi ilə bağlı növbəti dinləmələr məhz "Erkir tsirani" (Ərik ölkəsi) partiyasının rəhbəri, eks-deputat Zaruhi Postancyanın fikirləri haqqında keçiriləbilər. Ermənistanın nasizmin qəhrəmanlaşdırılmasına qarşı qətnaməyə qoşulmasına baxmayaraq, əslində biz qətnamənin müddəasının icrasını görmürük. Bu ölkədə Qaregin Njde kultu mövcuddur - bu şəxsə abidələr ucaldılır, küçələr onun adını daşıyır. Təəssüf ki, Ermənistanda ksenofobiyanın təzahür formaları nasizmin qəhrəmanlaşdırılması ilə müqayisədə daha genişdir. Ermənistan terrorçuların qəhrəmanlaşdırılmasını davam etdirir, eləcə də açıq antisemitizm nümayiş etdirir. Bunun ən aydın göstəricisi beynəlxalq terrorçu Monte Melkonyanın Ermənistanın milli qəhrəmanı olmasıdır. 2021-ci ilin fevral ayında Holokost abidəsi təhqir edilib və təsadüfi deyil ki, İsrailin Diaspor İşləri üzrə Nazirliyinin 2021-ci il üzrə hesabatında Ermənistan antisemitizmin ən yüksək səviyyədə olduğu ölkə kimi göstərilib. Digər tərəfdən, 2021-ci ilin aprel ayında İrəvanda Mahatma Qandinin abidəsinə qarşı dəfələrlə vandalizm aktı törədilib və abidə yandırılıb. Bu, ksenofobiya probleminin Ermənistan cəmiyyətində nə qədər dərin yer tutduğundan xəbər verir".

***"Bu ölkədə dini, irqi, milli dözümsüzlük ən yüksək həddədir"***

Aynurə Pənahqızı

# Benzinə qatqıların əlavə edilməsi cinayət əməlidir

## Baş Prokurorluğun istintaq hərəkətinə başlaması üçün əsaslar var



**Sürücülər indiyədək and-aman edirdi ki, benzinə nəsə qatılır, "su" kimidir, avtomobilin "bak"ını doldurmaqla qurtarmağı bir olur, (təbii qaz da belədir, yeri gəlmişkən, sayğaca yükləməyinlə qurtardığını görürsən - M.R.) SOCAR deyirdi, "elə şey mümkün deyil. Ola bilməz". Nəhayət, SOKAR rəsmisi benzinə qatqılar əlavə edildiyi etirafında bulundu.**

Trend-in məlumatına görə, SOCAR-ın ictimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov dünən Bakı Neft Emalı Zavodunda təşkil olunmuş mediatur zamanı bunu deyib. Onun sözlərinə görə, Azərbaycanda benzin və yanacağın keyfiyyəti dövlət orqanları tərəfindən yoxlanılır, yanacaqdoldurma məntəqələrində aparılmış yoxlamalar zamanı daxili standartlarla bir sıra uyğunsuzluqlar aşkar edilib: "Bu pozuntular yanacağın saxlanması ilə bağlıdır. İstisna olunmur ki, yanacağa bəzi qatqılar əlavə edilir. Zavodumuzda istehsal olunan Aİ-92 benzini Azərbaycanda mövcud olan norma və standartlara cavab verir. Bundan başqa, biz NEZ-də istehsal olunan məhsulun beynəlxalq standartlara cavab verməsinə çalışırıq. Bunun üçün zavodun modernləşdirilməsi işləri davam edir". İ.Əhmədov qeyd edib ki, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda yanacaq istehsalını beynəlxalq standartlara uyğun optimallaşdırır. Azərbaycanda AVRO-5 standartlı yanacaq istehsalının işə düşməsindən sonra bu yanacaqla işləyən avtomobillərin sayı arta bilər.

*AVRO-5-i qoyaq kənara. Ona hələ çatmamışıq. Bəs hazırda kütləvi istehlakda olan benzinə qatılan nədir? SOCAR bunun qarşısını ala bilmirmi?*

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında SOCAR rəsmisinin belə bir etirafının Baş Prokurorluğa istintaq hərəkətləri başlamaq üçün əsas verdiyini dedi:** - Benzinə qatqılar əlavə edilməsi cinayət tərkibli işdir. Respublika Baş Prokurorluğu bununla bağlı araşdırma aparmalı, yanacağa qatqılar əlavə edən yanacaqdoldurma məntəqəsi məsuliyyətə cəlb olunmalı və bazardan çıxarılmalıdır. Bu, müştərilərin - vətəndaşın aşkar şəkildə aldadılması, pulunun mənimsənilməsi, keyfiyyətli yanacaq üçün ödənilmiş məbləğə keyfiyyətsiz yanacaq satılması deməkdir. SOCAR rəsmisi açıqlamasında bildirir ki, daxili standartlarda uyğunsuzluq var, pozuntular yanacağın saxlanması ilə bağlıdır. Saxlanma qaydasının da öz standartları var. Yanacağın saxlanmasında hansı pozuntular ola bilər? Yanacaq çənlərdə toplanır. Deyək ki, Aİ-92 ayrı çəndədir, Aİ-95 başqa çəndə. Çənlərə əlavə nəsə tökürlər ki, həcm artsın, nəticədə keyfiyyət aşağı düşür. Başqa nə ola bilər? Saxlanma qaydasındakı hansı pozuntudur, keyfiyyətə təsir edən, bunu dəqiq açıqlamalıdırlar. Pozuntulara yol verən yanacaqdoldurma məntəqəsinin də adını açıqlamalıdırlar. Vətəndaşlar o yanacaqdoldurma məntəqəsindən avtomobillərinə benzin vurmasın. Ümumiyyətlə, bu məsələdə şəffaflıq olmadığı üçün vətəndaşlara ödədikləri məbləğə uyğun keyfiyyətli yanacaq satılmır. Keyfiyyəti müəyyən etməyin də üsulları var, dərhal büruzə verir. Belə pozuntular aşkar edilibsə, onu edənlər məsuliyyətə cəlb edilməlidir.

Məlahət Rzayeva

# Ötən həftə işğaldan azad edilmiş ərazilərdə 37 mina aşkarlanıb

## 50 hektar ərazi mina və PHS-lərdən təmizlənib



**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.**

Agentlikdən verilən məlumata görə, noyabrın 22-dən 27-nə qədər Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda 1 piyada əleyhinə mina, 36 tank əleyhinə mina və 14 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 50 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

# BDU-nun 10-dan çox qrupu distant təhsilə keçib

## Həmin qruplar Kimya, Fizika və Hüquq fakültələrindədir



**Bakı Dövlət Universitetinin (BDU) ümumilikdə 11 qrupu COVID-19 virusuna görə distant təhsilə keçib.**

Bu barədə "Şərq"-ə BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Günel Orucəliyeva məlumat verib. O bildirib ki, həmin qruplar Kimya, Fizika və Hüquq fakültələrindədir. "İki həftəlik karantin müddəti başa çatdıqdan sonra həmin qruplar yenidən əyani tədrisə keçəcək. Müəllimlər arasında isə koronavirusa yoluxma halı baş verməyib" - deyə, Günel Orucəliyeva əlavə edib. BDU-da təhsil alan xarici tələbələrin əyani tədrisə cəlb olunmasına gəlincə isə qurum rəsmisi qeyd edib ki, bütün xarici tələbələr ölkəyə gəlib:

"Koronavirus pandemiyası səbəbindən Azərbaycana gələ bilməyən xarici tələbəmiz yoxdur", - deyə o bildirib.

# Omicron variantı elə də təhlükəli deyil

## İndi bir nömrəli vəzifə insanların psixoloji durumunu qorumaqdır



*(Əvvəli səh: 8-də)*

**Pediatr Vaqif Qarayev sosial şəbəkə üzərindən vətəndaşlara müraciət edib. Həkim qeyd edir ki, Omicron ştamının daha yoluxucu olduğu ehtimal edilir. Əhali arasında həyəcan varsa, səhiyyə qurumları açıqlama verməlidir:**

- Yeni ajiotaj başlayıb. Bu ştamm daha yoluxdurucu, daha öldürücü olması, hazırkı vaksinlərin Omicrona qarşı təsirsiz olması hələlik ehtimal edilir. Afrikada bir neçə nəfər yoluxub, ölüm də yoxdur, vaksin də istifadə olunmayıb, amma bütün planet çalxalanır. Epidemiyalarda səhiyyə qurumlarının iki əsas vəzifəsindən biri, bəlkə də birincisi insanların psixoloji durumunu qorumaqdır! Açıq deyək, etmir bunu beynəlxalq qurumlar, xəbərdarlıq belə olmur. Nə olur-olsun, yenə qorunma qaydalarına əməl etməliyik. Peyvənd vurdurmaqdan çəkinməyin!

**İnfeksionist həkim Mərdan Əliyev isə ”Şərq”ə açıqlamasında koronavirusun Omicron variantı haqqında bəzi bilgilərin artıq əldə edildiyini dedi:**

- Məlumat bundan ibarətdir ki, Omicron variantı Cənubi Afrikada tapılıb. Sağ olsunlar ki, operativ hərəkət edərək yeni variantı qısa zamanda aşkarlayıblar. Yeni variantın xüsusiyyətləri yoluxma sürətinin yüksək, amma xəstəliyin yüngül keçirilməsidir. İnkubasiya dövrü də qısadır - 11 gündür. Kliniki göstərişləri ağır olmayıb. Yeni varianta yoluxanlar xəstəliyi ağır keçirməyib. Həmçinin, peyvənd olunmayan şəxslərin bu yeni varianta yoluxduğu aşkarlanıb. Amma biz deyə bilmərik ki, koronavirusa qarşı hazırkı peyvəndlər yeni variant üçün nə dərəcədə təsirlidir. Çünki Afrikada, bildiyimiz qədər peyvənd olunanların sayı azlıq təşkil edir. Delta variantının yoluxma sürəti yüksək idi. Delta ştammına yoluxma əvvəlkinə nisbətən daha çox oldu. Uşaqlara da yoluxdu. Uşaqlar arasında COVİD-19-a yoluxma faktları yox idi, amma Delta ştammında uşaqlar arasında da yoluxma baş verdi. İlkin məlumatlara baxıldığında Omicronun sürətlə yayıldığı görünür. Amma bu bir tərəfdən müsbət tendensiyadır. Çünki yoluxma nə qədər sürətli olursa, kütləvi immunitet də bir o qədər sürətlə formalaşır. Hesab edirəm ki, sürətli yoluxuculuq xüsusiyyətinə görə, Omicron dominant şəklə düşəcək və kütləvi immunitet yaradacaq.

*M.Əliyev bildirdi ki, bir sıra ölkələrin səyahətlərə qadağa qoyması, sərhədlərini bağlamasının səbəbi qabaqlayıcı tədbir həyata keçirməklə bağlıdır:*

- Yeni variantın necə, hansı formada davam edəcəyi hələ bilinmir. Ona görə də dövlətlər qabaqlayıcı tədbir görür. Özlərini sığortalayır, qoruyurlar. Belə görünür ki, virus şəklini dəyişməkdə davam edəcək. Yeni-yeni ştamlar ortaya çıxacaq. Bəzisi yüngül, bəzisi ağır olacaq. Bütün hallarda qabaqlayıcı tədbir görməkdə fayda var.

**Məlahət Rzayeva**

# Yaralı qəhrəman...

## Vətən fədaisinin qəlbinə toxunur, onu incidirlər

**Ermənistanın ölkəmizə ərazi iddialarının başladığı, soydaşlarımızın erməni quldur dəstələri tərəfindən silahlı hücumlara məruz qaldığı vaxtdan Saleh Cəfərov da milyonlarla vətənpərvər kimi Vətəminizin müdafiəsinə qalxıb. Əslən Qarabağ bölgəsindən, Ağdərənin Sırxavənd kəndindən olan Saleh Cəfərov ermənilərin alçaq xislətinə bələd olub. Daşnak tör-töküntülərinin fürsət düşdükcə yerli azərbaycanlılara qarşı çirkin oyunlarının şahidi olub.**

Rəhbər vəzifələr tutan ermənilər ali savadlı azərbaycanlı kadrların işlə təmin olunmasına mane olur, bununla da azərbaycanlıların doğma kəndlərini, rayonlarını tərk edib şəhərə köçməsinə təkan verirdilər. Saleh Cəfərov da kənd təsərrüfatı məktəbini bitirsə də, rayonda işlə təmin edilmədiyindən Bakıya gəlib və burada işləməyə başlayıb. 1965-ci ildən etibarən müxtəlif orta məktəblərdə müəllim işləyib, bununla yanaşı Mühazirəçilər Cəmiyyətinə üzv qəbul edilib və tələbələr qarşısında mühazirələr oxuyub. ”Bilik” Cəmiyyətinin fəxri fərman və diplomları ilə təltif edilib. Qarabağda yaşayan ermənilər 1988-ci ilin fevralından mitinqlər keçirərək aşkar şəkildə Azərbaycan əleyhinə çıxışlar etməyə, ”müstəqillik” tələb etməyə, soydaşlarımıza qarşı silahlı hücumlar təşkil etməyə başladıqda, S.Cəfərov ”Bilik” Cəmiyyətinin xətti ilə Şimali Qafqaza göndərilib və orada Azərbaycanın haqq davasını qafqazlılar önündə müdafiə edib, həqiqətləri anladıb. Bu ezamiyyətindən sonra onu Yuxarı Qarabağa göndəriblər. Burada da S.Cəfərov gərgin çalışıb, ”Şuşa”, ”Dalğa”, ”İnşaatçı”, ”Bakı” (axşam), ”Azərbaycan müəllimi” qəzetlərində onun fəaliyyəti işıqlandırılıb. Dəfələrlə ermənilərin hücumuna məruz qalıb, lakin əqidəsindən, haqq yolundan dönməyib. Qarabağdakı silahlı erməni birləşmələri havadarlarının dəstəyi ilə Qarabağda müharibə ocağı qaladıqda S.Cəfərov Bakıya gələrək Müdafiə Nazirliyinə müraciət edərək



***Cılız "məmurlar" gəldi-gedərdi, ancaq Saleh Cəfərov hər zaman döyüşçü kimi anılacaq***

sıravi əsgər kimi ön cəbhəyə göndərilməsini xahiş edir. MN tərəfindən S.Cəfərov Ağdamda yaradılmış 236 saylı yerli özünümüdafiə batalyonuna göndərilir. S.Cəfərov tək özü deyil, demək olar bütün qohum-əqrəbasını da batalyona cəlb edir. S.Cəfərov Qarabağın 30-dan artıq kəndinin müdafiəsində iştirak edib, bu döyüşlər barədə qəzetlərə məqalələr yazmağı da yaddan çıxarmayıb. Yazdığı məqalələrlə Azərbaycanın döyüş salnaməsini işıqlandırıb. Qarabağın ən çətin məkanlarından biri hesab edilən Qabartı çayı dərəsinin 1992-ci ilin iyun ayında düşməndən azad edilməsi məhz Saleh Cəfərovun hərbi planı əsasında uğurla baş tutub. Bu döyüşün nəticəsində qəhrəman əsgərlərimiz Ağdərə-Xankəndi yolu ilə 8 kilometr irəliləyərək şosse yolunu ələ keçiriblər. Həmin döyüşdə S.Cəfərov iki dəfə yaralanıb, lakin döyüş mövqeyini tərk etməyib. Bu döyüş barədə o zaman nəşr olunan ”Həyat” qəzetində məqalə yazılıb. S.Cəfərovun xidmət etdiyi 7-ci batalyon 1994-cü ilin aprelində Ağdam, Martuni istiqamətindən hücuma keçən düşmənin qarşısını alıb. Ağdamın işğal olunmamış kəndlərini müdafiə edib və düşmənin Ağcabədi istiqamətində irəliləməsinə imkan verməyib. Bu gərgin döyüş barədə ulu öndər, ümummilli lider Heydər Əliyev televiziya ilə çıxışı zamanı danışıb xalqımıza məlumat vermişdi. Həmin döyüşlərdə komandir Yelmar Edilov şəhid olmuşdu. Vəziyyət hələ də gərgin idi. S.Cəfərov isə bilirdi ki, düşmən dinc dayanmayacaq. Qondarma erməni soyqırımı günü yaxınlaşır deyə, yenə hücuma keçməyə cəhd göstərəcəklər. Belə də oldu. 1994-cü il may ayının 10-da erməni silahlıları Ağdamın Baş Qərvənd istiqamətindən hücuma keçdi. S.Cəfərov həmin vaxt yaralı halda xəstəxanada müalicə almasına baxmayaraq döyüşə qatıldı, yenə qəhrəmanlıqla döyüşdü. Batalyon bu döyüşlərdə düşmənin xeyli sayda texnikasını sıradan çıxarıb, düşmənə ağır zərbə vurmuşdu. S.Cəfərov döyüşlər zamanı komandır Nağı İmanovu ölümün pəncəsindən xilas edib. Əgər batalyon düşmənin qarşısını ala bilməsəydi, erməni quldurları Ağdamın daha 8 kəndini işğal edəcəkdi. Lakin buna imkan verilməyib. Bu döyüşə görə hərbi briqada Müdafiə Nazirliyindən təşəkkür məktubu alıb. Saleh Cəfərov belə bir şərəfli ömür yolu keçib. İndi isə bu ağsaqqala hansısa ”məmur” ”sən harda döyüşmüsən?! Görəsən, harda gizlənmişdin? Döyüşmüsənsə, bəs niyə sağ qalmısan?!” tipli iyrənc ittihamlar irəli sürməsi, əlbəttə, Vətən fədaisinin qəlbinə toxunur, onu incidir. Bu azmış kimi S.Cəfərovun Vətən döyüşçülərinə həsr etdiyi kitablarına qarşı da hörmətsizlik edilir. Vətən Saleh Cəfərov kimi milyonlarla oğlunu heç vaxt unutmayacaq. Cılız ”məmurlar” isə vəzifənin gəldi-gedər olduğunu dərk etsinlər. Saleh Cəfərov hər zaman döyüşçü, fədai kimi anılacaq. Ona hörmətsizlik edənlərsə elin, xalqın töhmətini qazanacaq.

**Aydın**

# Məktəblərdə psixoloqların sayı artırılacaq

## Fərqanə Mehmanqızı: “Təhsil Nazirliyi müasir terapiya üsulları, analizlər, testlər üzərində çalışmalıdır”



**Bakı məktəblərində psixoloq ştatı artırılacaq. Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva jurnalistlərə açıqlamasında bu barədə məlumat verib. O bildirib ki, Bakı məktəblərində psixoloq ştatının artırılması ilə bağlı addımlar atılacaq:**

”İndiki zamanda məktəblərdə psixoloji işin təşkili istiqamətində addımlar atılır. Mütəmadi olaraq bu istiqamətdə maarifləndirici konfrans və seminarlar təşkil olunur. Çünki risk qrupları ilə işləmək üçün müəyyən istiqamətlər mövcuddur”.

**Addımı dəyərləndirən psixoloq Fərqanə Mehmanqızı ”Şərq”ə bildirib ki, dəfələrlə verilişlərə, saytlara müsahibə zamanı bu məsələni dəfələrlə qaldırıb:** ”Birmənalı şəkildə məktəblərdə psixoloq ştatı artırılmalıdır. Ən azı 2-3 min uşağı nəzərə alsaq, buna psixoloqun fiziki gücü yetməz. Bir sinifdə 30-35 şagird təhsil alır. Psixoloq sinifdə əyləşib, müşahidələr aparmalı, şagirdlərin xarakteristikasını yazmalı, gərək duyarsa, individual işləməlidir. Amma sadalananların hamısını bir psixoloqun etməsi mümkün deyil”.

**Müsahibimiz diqqətə çatdırıb ki, psixoloq peşəsinə əksəriyyət yeni sahə kimi baxsa da, onun dərinlikləri var:**

”Psixoloqlar ixtisaslaşırlar. Uşaq, yeniyetmə və böyüklər üçün olan psixoloqlar fərqli istiqamətlərə bölünür. Kim ki ”hərşeyşünas” olmaq istəyir, onlar nəticə əldə etmir. Düşünürəm ki, ibtidai siniflərdə təhsil alan şagirdlərlə yuxarı sinif və yeniyetmələrin psixoloqu ayrı olsa, daha yaxşı olar. Şagirdlərə nəzarət imkanları böyüyər. Nəticədə ortaya keyfiyyətli iş çıxar və psixoloq hər bir fərdi tanıyar”.

**F.Mehmanqızı vurğulayıb ki, 1-ci siniflərə qəbul zamanı uşaqlar psixologiya imtahanından da keçsələr, daha məqbul olar:** ”Qabiliyyət, qavrama testləri olmalıdır. Valideyn iclaslarında mütləq psixoloqlar iştirak etməlidir. Fənn müəllimləri iclaslarda şagirdlərin təhsili ilə bağlı məlumat verdiyi kimi psixoloq da fəaliyyət göstərməlidir. Müəllim, valideyn, psixoloq birgə işləyib, cəmiyyətə sağlam şəxsiyyət yetişdirməlidirlər. Bu səbəbdən ştat sayı artırılmalıdır. Bir çox universitet psixoloq məzunlar buraxır. Bu gün psixologiyaya maraq var. Hətta qeyri-rəsmi olsa da, sertifikat ilə də psixoloq olanların şahidi oluruq”.

*F.Mehmanqızının fikrincə, dövlət hesabına kurslar fəaliyyət göstərsə, yaxşı olar:* ”Təhsil Nazirliyi müasir terapiya üsulları, analizlər, testlər üzərində çalışmalıdır. Xüsusi seminarlar təşkil olunsa, xoşagələn addım kimi dəyərləndirilərdi. Məktəb psixoloqlarının Psixoloqlar Assosiasiyasına üzv olması daha uyğun hesab edilə bilər. Belə olduğu halda Assosiasiyaya üzv olan psixoloqlar hər hansı mövzu haqqında ortaq məxrəcə gələr. Həmçinin proqramlar tərtib edilməlidir. 10 il əvvəlin yox, yalnız müasir düşüncəyə cavab verən proqramlar psixoloqların köməyinə çatar”.

**Sücayət Mehti**




# Azercell sosial şəbəkələrdə yarışma elan edir

## Azərbaycanda telefon rabitəsinin yaradılmasının 140 illiyi münasibətilə xüsusi hədiyyələr oynanılacaq

**Bu il Azərbaycan Respublikasında telefon rabitəsinin yaradılmasının 140 ili tamam olur.**

Bu münasibətlə ölkənin lider mobil operatoru ”Azercell Telekom” MMC abunəçiləri arasında müsabiqə elan edir. Müsabiqə rabitənin 140 illiyi münasibətilə Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliyinin təşkil etdiyi tədbirlər çərçivəsində keçirilir. ”Rabitənin dünəni və bu günü” mövzusuna həsr olunmuş müsabiqə 28 noyabr-6 dekabr tarixləri arasında Azercell-in rəsmi sosial şəbəkə hesablarında keçiriləcək. Yarışma iştirakçıları təqdim olunan şəkillərdə gizlin detalları aşkara çıxarmaqla hədiyyə qazanacaqlar. ”Gizlini aşkara çıxar, hədiyyəni apar” şüarı ilə keçiriləcək yarışma qeyd olunmuş zaman çərçivəsində abunəçilərə müxtəlif hədiyyələr qazanmaq imkanı verəcək.

*Xatırladaq ki, Azərbaycanda ilk telefon xətti 1881-ci il noyabr ayının 23-də istismara verilib. Uzunluğu 6 km olan bu telefon xətti ”Nobel qardaşlarının neft istehsalı şirkəti”-nin baş kontoru ilə sədr və baş mühəndisin evlərini birləşdirib. Elə həmin tarix ölkəmizdə rabitə əsrinin başlanğıcı kimi qəbul edilir. Azərbaycanda mobil rabitə sektorunun flaqmanı sayılan ”Azercell Telekom” MMC-nin hazırladığı müsabiqələr hər zaman müasir cəmiyyətin, xüsusilə də gənclər arasında mütaliə mədəniyyətinin inkişafına, tariximizin öyrənilməsinə və təbliğatına xidmət edir. Müsabiqədə iştirak edin, həm maariflənin, həm də hədiyyə qazanın!*

**Elan**

Hüseynova Cəmilə Əsgər qızına məxsus Masazır qəs. Qurtuluş-93 bağçalı evlər, bina 57, mən. 47 saylı evə məxsus müqavilə itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2487



## Qaçan pişiyini tutmaq istədi

5-ci mərtəbədən yıxılıb öldü

**Türkiyənin Tekirdağ bölgəsində faciə yaşanıb. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Tekirdağın Hayrabolu əyaləti Şalgamlı Ailə Sağlığı Mərkəzində həkim işləyən, 1994-cü il təvəllüdlü İrəm Büşra Üngül İstanbulda yaşayan ailəsini ziyarətə gedib.**

İrəmin "Faik" adlı pişiyi eyvana qaçıb. Həkim xanım da pişiyi tutmaq üçün ardınca eyvana qaçıb. Pişiyi tutmaq istərkən müvazinətini itirib və 5-ci mərtəbədən yerə yıxılıb. Hadisə yerinə təcili tibbi yardım çağırılıb, gənc həkim xəstəxanaya çatdırılıb. Lakin həkimlərin səyinə baxmayaraq İrəmin həyatını xilas etmək mümkün olmayıb. İrəm Büşra Üngül 2019-cu ildə Samsun "19 Mayıs" Universitetinin tibb fakültəsini bitiribmiş. Gənc qadının cənazəsi doğma yurdu Hayranboluda torpağa tapşırılacaq.

**Məlahət**

## "Şans"lı insanlar...

Bu qan qrupuna sahib cəmi 43 nəfər var!



**Qan qrupları qırmızı qan hüceyrələrimizin, eritrositlərin səthində yerləşən antigenlərin mövcudluğuna və mövcud antigenlərin növünə görə dəyişir.**

Gündəlik həyatda istifadə olunan A, B və Rh antigenləri ilə yanaşı, Vel, Ena, Moa, Aua kimi 300-dən çox antigen növü var. Bununla belə, bu antigenlər klinik əhəmiyyət kəsb etmir, çünki onlar ya ümumi, ya da çox nadir antigen növləridir. Buna görə də qan mübadiləsində onların əhəmiyyəti yoxdur.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Rh antigeninin 50 müxtəlif variasiyası var və gündəlik həyatımızda istifadə etdiyimiz Rh(+) və Rh(-) sözləri Rh antigeninin bu 50 variasiyasında ən dominantının, yəni D-nin varlığını və ya olmamasını ifadə edir. İndi gəlin bu "şanslı" 43 nəfərə keçək. Bu insanların qanına "qızıl qan" da deyilir. Sözü uzatmadan bu qan qrupunun adını çəkək: 0 Rh Null.0 Rh Null insanlar 0 qrup olduğu üçün nəinki A və B antigenini ehtiva etmir, həm də yuxarıda qeyd etdiyimiz Rh antigeninin 50 müxtəlif variasiyasından "heç birini" ehtiva etmir. Başqa sözlə, dünyada bu 43 insan istisna olmaqla, Rh antigeninin 50 variasiyasından biri mütləq bütün insanlarda mövcuddur, 0 Rh Null olan insanlarda isə bu 50 variasiyadan 50-si də yoxdur.

**Günəş Mərd**




# Omicron variantı elə də təhlükəli deyil

## İndi bir nömrəli vəzifə insanların psixoloji durumunu qorumaqdır

**Ümumdünya Səhiyyə Təşkilatı dünyaya elan etdi: Koronavirusun Omicron variantı qlobal risk ehtimalı çox yüksəkdir!**

ÜST Omicron variantı ilə bağlı dünyanın 194 ölkəsinə texniki məlumatlandırma göndərib. Böyük Britaniya hökuməti isə "G7" ölkələri səhiyyə nazirlərinin iştirakı ilə toplantı keçirilməsinə çağırış edib. "CNN İnternational" hazırda Afrikanın bir çox ölkəsinə aviareysləri təxirə salan ölkələrin sayının 44 olduğunu, yeni variantın yayılması ilə səyahət qadağalarının təkrar aktuallaşacağını bildirib. ÜST açıqlamasında yeni variantın xüsusiyyətindən asılı olaraq irəlidə yoluxma saylarının arta biləcəyinə, bunun da ciddi nəticələrə səbəb olacağına diqqət çəkir. Peyvəndləmənin sürətinin artırılmasını vacib sayır. Avropa Yoluxucu Xəstəlikləri Önləmə və Nəzarət Mərkəzi də yeni variantın Avropa Birliyi ölkələri daxilində yayılma riskinin "yüksək və çox yüksək" arasında olduğunu açıqlayıb. Rəsmilərsə səyahət qadağaları və sərhədlərin bağlanmasının yanlış qərar olduğunu deyir, ölkələri bu məsələdə təhlükəyə qarşı önləm almağa çağırırlar. B.Britaniya, Niderland, Kanada, Danimarka, Belçika, Çexiya və İtaliyada Omicron variantına yoluxma halları aşkarlanıb. ABŞ da bu gündən etibarən Güney Afrika ölkələrinə səyahətləri məhdudlaşdırır. Yeni variantla bağlı ABŞ Prezidenti Co Baydenin açıqlama verəcəyi gözlənilir. İsrail dövləti isə digər ölkələrdən daha tez sərhədlərini bağlayıb. Yaponiya da sərhədləri bağlayan ölkələr sırasına qoşulub artıq. Yaponiya hökuməti əcnəbi vətəndaşların ölkəyə gəlişini məhdudlaşdırır. Bu məhdudiyyət ölkədə yaşamaq izni olanlara aid deyil. Alman viroloq Christian Drostenin açıqlaması da narahatlıq yaradır. Viroloq





Almaniyanın ZDF televiziyasına açıqlamasında koronavirusun yeni variantı haqqında "təhlükəli vəziyyətdir. Kimsə hazırda nəylə qarşı-qarşıya olduğumuzu söyləyə bilməz", deyib.

*(Davamı səh: 7-də)*

**Məlahət**

## Tibbdə bir ilk

**Beyin toxuması 12 saat canlı qaldı**



**Bir qrup tədqiqatçı tibb dünyasında əsaslı tədqiqata imza atıb.**

**Medicina.az xəbər verir ki, Kopenhagen Universitetindən Emma Lous və komandası xəstədən beyin toxumasının bir parçasını götürüb.**

**Komanda əvvəlcə 1 sm beyin toxumasını soyudub və onu oksigendə saxlayıb.**

**Beləliklə, hüceyrələr sağ qalıb. Tədqiqatçılar toxumanı onurğa mayesi ilə eyni tərkibli qarışığa qoyublar. Onlar insanın 1 sm beyin toxumasını 12 saat canlı saxlaya biliblər.**

## Məşhur reper 75 milyonluq maşın aldı





**Məşhur rusiyalı reper "Timati" ləqəbli Timur Yunusov özünə bahalı avtomobil alıb.**

**Lent.az xəbər verir ki, 38 yaşlı reper "Mercedes-Bens 300SL" markalı yeni maşınını şəxsi "Instagram" hesabında paylaşıb.**

**Məlumata görə, avtomobilin qiyməti 75 milyon rubldur (təxmini 1.5 milyon dollar).**



# Lazer üzünü yandırdı

## Kosmetoloqa həbs cəzası tələb olunur



**Xanımlar son illərdə lazer epilyasiya ilə yamanca "dostlaşıb". Diqqət edin, lazer üz dərisini yandırıb bərbad hala sala da bilər. Antalyada yaşayan 43 yaşlı Aslı İlhanın başına (daha doğrusu üzünə) belə bir hadisə gəlib. Aslı 1 il əvvəl lazer epilyasiyası üçün gözəllik salonlarından birinə gedib. Amma əməliyyat uğursuz olub və Aslının üz dərisində 2-ci dərəcəli yanıqlar əmələ gəlməsinə səbəb olub.**

Üz dərisi yanan A.İlhan gözəllik salonu və kosmetoloqdan şikayətçi olaraq məhkəməyə müraciət edib. Məhkəmə gözəllik salonunun sahibi A.A-nın 3 min 360 TL məbləğində cərimələyib. A.İlhan isə kosmetoloqun həbs cəzası almasını istəyib və məhkəmənin qərarına etiraz edib. A.İlhan "üzümün yanması, 1 ildir çəkdiyim acılar, ağrıların müqabilində 3 min TL nədir ki?!" deyərək məhkəmənin qərarından şikayət edəcəyini söyləyib. Aslının üzünün yanmasının həm də ilginc hekayəsi var. Qadın gözəllik salonunun reklamını sosial mediada görüb. Üz dərisinin dartılması üçün ora müraciət edib. İkinci seans zamanı kosmetoloq mobil telefonla sevgilisiylə danışırmış, sonra mübahisə etməyə başlayıblar, lazer aparatı yaddan çıxıb, Aslı üzündə istiliyin getdikcə artdığını hiss edib. Kosmetoloq bir də ayılıb ki, qadının üzü yanıb. A.İlhan daha sonra yanıqların müalicəsi üçün başqa bir gözəllik mərkəzinə müraciət edib. Amma bu dəfə də üz dərisini müalicə etməyiblər, əksinə, daha da betər hala salıblar. A.İlhan hər iki gözəllik mərkəzindən ödədiyi pulları geri almaq istədikdə onu təhdid etməyə başlayıblar. Buna görə də o, məhkəməyə müraciət edib. Lakin məhkəmənin məlum qərarı ilə razı deyil: "Üzümün dərisi yanıb. Xeyli xərcə düşmüşəm. Üstəlik hələ də psixoloji sıxıntılar yaşayıram. Bunların əvəzi yalnız təzminat ödənməsi olmamalıdır. Həbs cəzası da tələb edirəm".

**Məlahət Rzayeva**

## Farel balığı xeyirli olduğu qədər ziyanlıdır



**Bəzi qidalar orqanizm üçün əsl vitamin qaynağıdır. Bu qidalar sırasında dəniz məhsullarının xüsusi yer var. Xüsusən də okean balıqları, somon balığı, farel kimi növlər Omeqa-3, protein baxımından çox zəngindir.**

Buna görə də mütəxəssislər qida rasionunda balığa üstünlük verilməsini çox tövsiyə edir. Lakin balıqdan hazırlanan qidalarla bağlı həm də çox diqqətli olmaq lazımdır. Məsələn, hədsiz ləzzətli olan somon balığı (farel) qanın duruluğunu artıra bilər, bu isə orqanizmə ziyanlıdır. "Şərq" CNN Türk-ə istinadən bildirir ki, somon balığı protein və Omega-3 yağı qaynağıdır. Bununla yanaşı, tərkibindəki zəngin protein və Omega-3 yağları səbəbindən bəzi insanlara problem yarada bilər. Çünki Omega-3 yağı və protein bolluğu qanı durulducu xüsusiyyətlərə də malikdirlər. Qanı qatı olmayan insanlar bu balığa çox da meyl etməməlidir. Həmçinin araşdırmalar zamanı məlum olub ki, mütəmadi somon balığı yemək qanda civənin də miqdarını artırır, nəticədə qanın zəhərlənməsi baş verir. Mütəxəssislər balıq alarkən diqqət ediləcək məqamları açıqlayır. Təhlükənin minimal olmasını isyərisinizsə, çay və ya kiçik dənizlərin balıqlarına üstünlük verilməlidir. Şünki balıq nə qədər böyüksə, təhlükəsi də bir o qədər böyük olacaq. Balıq həcmcə böyükdürsə, deməli, uzunömürlüdür. Uzunömürlü olmaqsa, balıqda zəhərli maddələrin daha çox toplanması deməkdir. Dənizlərdə, okeanlarda külli miqdarda zəhərli maddələr, o cümlədən civə vardır ki, dəniz canlılarında, dəniz məhsullarında toplanır. Balıqlar da onlarla qidalanır. Və həmin zəhəri qəbul etmiş olurlar. Ona görə də böyük ölçülü və çəkili balıqlardan uzaq durmaq məsləhətdir.

**Məlahət**

## Turizm 2023-cü ildən tez bərpa olunmayacaq



**Dünyada turizm, çox güman ki, ən tezi 2023-cü ilə qədər pandemiyadan əvvəlki səviyyəyə qayıda biləcək.**

Aviatravel.az bildirir ki, bu fikri "TASS"a müsahibəsində Birləşmiş Millətlər Təşkilatının Dünya Turizm Təşkilatının (UNWTO) baş katibi Zurab Pololikaşvili deyib.

Onun sözlərinə görə, hazırda Cənubi Avropa, Mərkəzi Amerika və Karib hövzəsi regionlarında turizmin bir qədər bərpası müşahidə olunur:

"Ekspertlərin təxminən yarısı (45%) beynəlxalq turizmin 2024-cü ildə və ya daha sonra 2019-cu il səviyyəsinə qayıdacağına, 43%-i isə 2023-cü ildə bərpa olunacağına inanır".